# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!




Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 64 (8087) ÇƏRŞƏNBƏ, 20 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# XALQ Prezidenti ilə Novruz bayramını keçirdi

**Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsi və milli ruhunu özündə əks etdirir. Novruz xalqın milli təfəkkür tərzini, onun həyat və məişətini, adət və ənənələrini özündə yaşadan əsl el mərasimidir. Odur ki, xalqımız durduqca Novruz adət-ənənələri, onun yaratdığı mədəni sərvətlər də bizimlə olacaq. Çünki Novruz bayramı dərin milli köklərə, zəngin adət-ənənələrə malik olmaqla xalqımızın ictimai və mənəvi həyatında əhəmiyyətli hadisədir. Novruz həm də xalqımızın milli həmrəyliyinin rəmzidir. Ona görə də Novruzun timsalında ölkəmizdə malik olduğumuz milli mədəniyyət nümunələrinin qorunub saxlanmasının özü belə, bir mədəniyyət və bəşər əhəmiyyətli hadisədir. Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlərboyu Novruz bayramını əziz tutub. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi milli məsələ də var idi. Çünki məhz ümummilli lider Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi şəkildə qeyd olunmağa başladı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il xalqa ünvanladığı təbriklər onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Dövlət başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəldilər.

Bayram şənliyinin iştirakçıları dövlət başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam. Bayramınız mübarək!

**Sakinlər:** Çox sağ olun. Mehriban xanım, təbrik edirik. Bayramınız mübarək.

**Birinci xanım Mehriban Əliyeva:** Bayramınız mübarək olsun.

Novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada "Torpaq əlimdə, bahar ürəyimdə" xeyriyyə yarmarkası ilə tanış oldular.

**Sakinlər:** Cənab Prezident, Mehriban xanım, bayramınız mübarək. Var olsun Prezidentimiz. Cənab Prezident, Sizin gördüyünüz işləri xatırlatmağa ehtiyac yoxdur. Hamısı göz qabağındadır. Məhz buna görə Mehriban xanımı da, Sizi də hamı sevir. Allah Sizi qorusun. Sizə və ailənizə cansağlığı diləyirik. Bayramınızı bir daha təbrik edirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sizin də bayramınız mübarək olsun.

Dövlət başçısı və birinci xanım gənc rəssamların əsərlərinin sərgisinə baxdılar.









*Ardı 2-ci səh.*

# Sarsılmaz birlik

Xalqımızın olduqca yüksək xoş ovqatla qeyd etdiyi budəfəki Novruz bayramı məlum həqiqətlərə yeni işıq saldı. Belə ki, bu bayram bütün məziyyətləri ilə yanaşı, Azərbaycandakı sarsılmaz xalq-iqtidar birliyinin növbəti təsdiqi kimi yadda qaldı. Hər fürsətdə sadə vətəndaşlarla təmasa üstünlük verən Prezident İlham Əliyev Novruz münasibətilə keçirilən ümumxalq şənliyini də xalqla birgə qeyd etdi.

## Milli dəyərlərə yüksək ehtiram nümunəsi

Bakı artıq günlərdir ki, bayram libasına bürünüb. Novruz şənliklərində ictimaiyyətin bütün zümrələrini görmək olardı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bayram şənliyində iştirakı da elə paytaxt sakinlərinin əhatəsindən başladı. Bu səmimi izdiham Azərbaycandakı xalq-iqtidar birliyinin, insanların öz Prezidentinə sevgi və etimadının növbəti təcəssümü oldu.

Prezidentin bayram şənliklərində Fəvvarələr meydanından başlayan iştirakı isə Qız qalasına kimi davam etdi. Kosa və Keçəllə yumurta döyüşdürən Prezident xanımı Mehriban Əliyeva ilə birlikdə Müasir İncəsənət Mərkəzində oldu, Karvansarada İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgiyə baxdı, sakinlərlə çay süfrəsi arxasında söhbət etdi, rəqs ansamblının çıxışını izlədi və Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı. Bu şənlikdə iştirak hər addımda dövlət başçısının milli dəyərlərə nə qədər möhkəm bağlı olduğunu göstərdi.

Ümumiyyətlə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasında yer alır. Dövlət başçısı tarixi-mədəni irsimizin yaşadılmasına və milli-mənəvi dəyərlərimizin qorunmasına xüsusi qayğı ilə yanaşaraq bu məqsədlə son 16 ildə mühüm addımlar atıb. Bütün bunlar Prezident İlham Əliyevin xalqımızın milli dəyərlərinə son dərəcə bağlı olduğunu, onlara hörmət və sayğı ilə yanaşdığını təsdiqləyir.

Hər il Novruz günlərində bayram münasibətilə Prezident İlham Əliyevin xalqa təbrik ünvanlaması dövlət başçısının milli və mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşmasının göstəricisidir. Budəfəki təbrikində Novruz bayramını əcdadımızın indiki nəsillərə misilsiz yadigarı adlandıran İlham Əliyev qeyd edib ki, yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir: *"Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir".*

*Ardı 3-cü səh.*

# XALQ PREZİDENTİ ilə Novruz bayramını keçirdi

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları aşıqların ifasını dinlədilər.

**Aşıq Samirə:** Cənab Prezident, saza, sözə diqqətə görə çox sağ olun. Bütün Azərbaycan aşıqları adından təşəkkür edirik. Bayramınız mübarək.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

Sonra Prezident İlham Əliyev Novruz şənliyində iştirak edən xarici ölkələrin vətəndaşları ilə görüşüb söhbət etdi.

Daha sonra dövlət başçısı və xanımı İçərişəhərə gələrək burada "Bahar qalası" festivalı ilə tanış oldular.

İçərişəhərin qala divarları üstündə qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verdi, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayaraq dedi:

- Xoş gəlmisiniz, gəlişiniz bərəkətdir, ruzidir. Elimizdən, obamızdan heç vaxt ruzi-bərəkət əskik olmasın. Uca dağlarımız yıxılmasın, kölgəli ağaclarımız kəsilməsin, gur-gur axan təmiz sularımız qurumasın, çapa-çapda ağboz atlarımız büdrəməsin, çarpışanda qılıncımız kütləşməsin, evimizdə çırağımız daim yansın. Qoy, üçrəngli bayrağımız zirvələrdə dalğalansın, düşmənlərimiz xar, dostlarımız var olsun. Heç kəs düşmənə möhtac olmasın. Bayramınız mübarək olsun.

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

Bahar qızı dövlət başçısına bayram xonçası təqdim etdi.

Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər.

**Kosa:** Cənab Prezident, Mehriban xanım, xoş gəlmisiniz. Cənab Prezidentin təkcə bu il qurub-yaratdıqlarını danışsan, gələn Novruza qədər bitməz. Bax, indi təkcə birini deyəcəyəm. Cənab Prezident, min illərdir mən xurcunumu, xonçalarımı doldura bilmirəm ki, bu Keçəlin toyunu edim. Sizin bayramqabağı verdiyiniz sərəncamlardan sonra xurcunlarımız da doldu, xonçalarımız da. Odur ki, bu Keçəlin toyunu rahat edə bilərəm.

**Keçəl:** Cənab Prezident, təşəkkür edirəm, gəlin, adət-ənənələrimizə uyğun olaraq bu il də yumurta döyüşdürək ki, elimiz-obamız daha da bərəkətli olsun. Qoy bu il də Azərbaycanımızın sorağı eldən-elə, dildən-dilə dolaşaraq hey ucalsın. Bayramınız mübarək olsun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm, bayramınız mübarək olsun.

Kosa və Keçəl dövlət başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bahar qalası" festivalı çərçivəsində İçərişəhərdə təşkil edilən yarmarka ilə tanış oldular.

Miniatür Kitab Muzeyinin yaradıcısı və təsisçisi, əməkdar mədəniyyət işçisi Zərifə Salahova Prezident İlham Əliyevə miniatür kitablar hədiyyə etdi.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür edərək dedilər: Çox hörmətli cənab Prezident, əziz Mehriban xanım, səməni ətirli, torpaq təravətli, bahar sevincli bu gözəl bayramda Sizi ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, ölkəmizin ərazi bütövlüyü, inkişafı naminə gördüyünüz böyük və məsuliyyətli işlərdə uğurlar arzu edirik. Cənab Prezident, gələn il bizim teatrın 110 ili tamam olur. Xoşbəxtik ki, bu yubileyi Sizin imzaladığınız sərəncamla, akademik teatr statusu ilə qeyd edəcəyik. Biz bilirik ki, Azərbaycan Dövlət Akademik Musiqili Teatrına Sizin səmimi münasibətiniz illər öncədən başlayır. Bizim əzizlərimiz, Tanrı sizi qorusun. Bayramınız mübarək olsun!

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

Dövlət başçısı və xanımı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində oldular. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müasir Azərbaycan rəssamlarının rəsmlərinə baxdılar.

Sonda dövlət başçısı və xanımı Karvansarada İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgi ilə tanış oldular.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hədiyyələr təqdim olundu, xatirə şəkli çəkdirildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənətkarlarla söhbət etdilər.

*Ardı 3-cü səh.*























# XALQ PREZİDENTİ ilə Novruz bayramını keçirdi

*Əvvəli 2-ci səh.*









**Prezident İlham Əliyev:** Sizə uğurlar, cansağlığı arzu edirəm. Bayramınız mübarək olsun.

**İranlı turistlər:** Bayramınız mübarək. Biz İrandan gəlmişik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sizin də bayramınız mübarək.

**Paytaxt sakini:** Salam, bayramınız mübarək. Mehriban xanım, bayramınız mübarək.

**Birinci xanım Mehriban Əliyeva:** Bayramınız mübarək.

**Paytaxt sakini:** Oğlum, get, babaya şeir de.

***Uşaq:*** *El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam doğma Vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan.*

**Birinci xanım Mehriban Əliyeva:** Afərin.

**Prezident İlham Əliyev:** Nə gözəl, nə yaxşı uşaqdır.

**Paytaxt sakini:** Çox sağ olun, minnətdaram. Bayramınız bir daha mübarək. Allah Sizi qorusun. Mehriban xanım, Sizin də bayramınızı təbrik edirik, cansağlığı arzulayırıq. Neçə belə illərə çıxasınız.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət etdilər.

İçərişəhərə göstərilən daimi diqqət və qayğı Prezident İlham Əliyevin ölkəmizin milli-mədəni irsinin qorunması sahəsində uğurlu dövlət siyasətinin tərkib hissəsidir. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi memarlıq irsinin qorunması və dünyada təşviqində böyük rolu var. İçərişəhər sakinləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıq etdilər.

**Prezident İlham Əliyev:** İçərişəhər bizim tarixi yerimizdir. Bilirsiniz, bir neçə ildir ki, İçərişəhərin xüsusi statusu var, burada xüsusi idarəetmə yaradılıbdır. Bizim tariximiz qorunur, tarixi abidələr bərpa olunur və İçərişəhər öz gözəl simasını saxlayır. Dünyada belə böyük şəhərlər o qədər də çox deyil. Bir neçə ölkədə belə qədim yaşayış yerləri bizdəki kimi dövlət tərəfindən qorunur. O cümlədən Avropa və Asiya ölkələrində bu cür şəhərlər var. Amma İçərişəhərin xüsusi aurası, xüsusi cəlbedici gücü var. Adam buraya gələndə getmək istəmir. Çox şadam ki, son illər ərzində burada abadlıq işləri aparılır. Amma əsas odur ki, bu tarixi sima qorunur. Demək olar ki, indi buraya hər gün turistlər gəlir.

**Sakin:** Mən yetmiş ildir ki, burada yaşayıram. Biz İçərişəhərin necə pis gündə olduğunu görmüşük. Küçələr daşlı idi, gəzmək olmurdu. İndi qısa müddətdə Sizin köməyinizlə İçərişəhər çox gözəl, çox rahat olub.

**Prezident İlham Əliyev:** Burada həm yaşamaq üçün şərait yaradılıb, həm də ki, ictimai yerlər. Bu gözəl şərait turistləri cəlb edir. İçərişəhərdə tarixi binalar təmir olundu. Onların bir çoxu köhnəlmişdi, sıradan çıxmışdı. İçərişəhər dünya miqyasında nadir bir yerdir.

**Sakin:** Bir vaxt deyirdilər ki, İçərişəhərdən camaatın hamısını köçürsünlər. Amma Siz qoymadınız.



**Prezident İlham Əliyev:** Düzdür, belə təkliflər var idi. Bu barədə mənə deyəndə qətiyyən bunun əleyhinə oldum. Çünki İçərişəhəri yaşadan burada yaşayan insanlardır. Yəni, bu, muzey deyil, bu, yaşayış yeridir. İçərişəhərlilər, onlara xas olan həyat tərzi, mədəniyyət - bunlar bizim böyük sərvətimizdir. İçərişəhərin üstünlüyü ondadır ki, qədim dövrlərdən burada insanlar yaşayır, nəsillər gəlir, gedir. Eyni zamanda, bu, açıq səma altında bir muzeydir. Bəzi ölkələrdə belə qədim yerlər, sadəcə olaraq, görüntü naminə saxlanılır, turistlər gəlirlər, gəzirlər, çay, qəhvə içib gedirlər. Amma İçərişəhərdə insanlar yaşayır. Əlbəttə ki, burada yaşayan insanlar üçün yaxşı şərait yaradılıb.

**Sakinlər:** Hara getsək bu yer bizi cəlb edir, hara getsək, birinci bura yadımıza düşür. Cənab Prezident, bizim muzeylərimiz də inkişaf edir. Keçən ilin dekabr ayında Nazirlər Kabinetinin qərarı ilə bir neçə muzey - Qız Qalası, Şirvanşahlar Sarayı, "Qala" Dövlət Etnoqrafik Qoruğu muzey birləşməsi oldu. İçərişəhər muzeylər mərkəzidir. Bildiyiniz kimi, Şirvanşahlar muzeyi ən aparıcı muzeylərdən biridir. Bizə qədim Şirvanşahlar dövlətindən qalan yeganə belə bir saraydır ki, çox böyük marağa səbəb olur. Buraya çoxlu turistlər gəlirlər. Bu, çox yüksək göstəricidir.

**Prezident İlham Əliyev:** Turistlər daha da çoxalacaq. 2016-cı ildən başlayaraq turistlərin sayı hər il artır. Əsas artım 2016-cı ildə başladı. Həmin il 22 faiz artım oldu. Ondan sonra daha 20 faiz artdı. Keçən il isə artım təqribən 5 faiz olub.

Sonra "Səma" uşaq rəqs ansamblının çıxışını izləyən dövlət başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı.

Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

## Tunis Respublikasının Prezidenti zati-aliləri cənab Beji Kaid əs-Sebsiyə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Tunis əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

## Yeni Azərbaycan Partiyasının rəhbərliyi Novruz bayramı münasibətilə müharibə və əmək əlilləri üçün pansionatda olub

Martın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyi Novruz bayramı münasibətilə Bakının Bilgəh qəsəbəsində yerləşən müharibə və əmək əlilləri üçün pansionatda olub. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov pansionatın sakinlərini Novruz bayramı münasibətilə təbrik edib. O bildirib ki, bu gün Azərbaycanda uğurlu sosial siyasət aparılır. Bu siyasətin nəticəsi olaraq, ölkədə dinamik iqtisadi inkişaf prosesləri vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə olunması ilə nəticələnir. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsində inqilabi addımlardır. Eyni zamanda, dövlət himayəsində yaşayan tənha ahıl insanların normal yaşayış şəraiti, onların etibarlı sosial müdafiəsi təmin olunur. Əli Əhmədov yaşlı nəslə, ahıllara diqqət və qayğı göstərilməsi işlərində YAP-ın da fəal iştirak etdiyini, partiyanın nümayəndələrinin tez-tez bu müəssisədə görüşlər keçirdiyini və burada yaşayanlara öz dəstəyini göstərdiyini vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti bütün həssas qruplar kimi, tənha ahıl vətəndaşların da rifah halının yaxşılaşdırılması tədbirlərinin güclənməsinə səbəb olub. Dövlət başçısı tərəfindən imzalanan fərman və sərəncamların həssas qruplara dövlət qayğısının əhəmiyyətli şəkildə artmasına imkan verdiyini vurğulayan nazir bildirib ki, eyni zamanda, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiya təminatının yaxşılaşdırılması, pensiyaların ciddi şəkildə artırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Həyata keçirilən bu mühüm sosial müdafiə tədbirləri vətəndaşlarımızın Novruz bayramını daha nikbin duyğularla qarşılamasına səbəb olub.

Müəssisənin sakinləri onlara göstərilən yüksək qayğıya, sosial müdafiə tədbirlərinin, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımlara, eyni zamanda, dövlətin himayəsində yaşayan ahıl insanlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

YAP icra katibinin müavinləri - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov görüşdə iştirak ediblər.

Tədbir bədii hissə ilə davam edib.

## Sarsılmaz birlik

*Əvvəli 1-ci səh.*

Bu gün xalqımız bu bayramı daha böyük şövqlə, daha yüksək əhvali-ruhiyyədə qeyd edir. Çünki həyata keçirilən siyasət, başlanan yeni islahatlar iqtisadiyyatda və insanların sosial rifahında əhəmiyyətli dərəcədə yüksəlişə səbəb olub. Xüsusən Prezidentin fevral ayında sosial məsələlərlə bağlı imzaladığı fərman və sərəncamlar artıq milyonlarla vətəndaşın maddi rifahında hiss olunur. Ona görə insanlar bu bayramı daha yüksək əhvali-ruhiyyədə keçirirlər. Prezidentin təbrikində qeyd olunduğu kimi, dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatlarının növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır.

### Nəsillərdən nəsillərə ötürülən bayram

Azərbaycan xalqı tarix boyu bu bayramı əziz tutmuş, böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qeyd edib. Təsadüfi deyil ki, Novruz bayramı ümumən bütün türk dünyasına xas olsa da, onu gözəl formada keçirən yalnız bizim xalqdır. Bunu Novruz günlərində Azərbaycana çoxsaylı turistlərin gəlməsi də təsdiq edir. Hətta sovet hakimiyyəti dövründə, xalqların milli ruhlarının tapdalandığı illərdə xalqımız Novruzu yaşadıb, gələcək nəsillərə ötürüb, Prezidentin qeyd etdiyi kimi, heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməyib. O illərdə dövlət səviyyəsində qeyd olunmasına imkan verilməsə də, hər il çərşənbə axşamlarında tonqallar qalanıb, hər bir ailədə Novruz süfrəsi açılıb, bayramın atributu olan şirniyyatlar bişirilib.

Bu barədə danışarkən ilk növbədə ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində xalqın milli və mənəvi dəyərlərinin yaşadılmasına göstərdiyi böyük diqqət yadda düşür. Məhz Heydər Əliyevin başladığı ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində daha kütləvi və daha təmtəraqla qeyd olundu. Heydər Əliyevin milli dəyərlərə bağlılığı bu el şənliyinin onun ölkəmizə rəhbərliyinin birinci dövründə cəsarətlə qeyd olunmasında və daha da kütləviləşməsində mühüm rol oynadı.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra müxtəlif qadağalar aradan qalxdı və xalqımız müqəddəs adət və ənənələrin, milli duyğuların, xeyirxahlığın, insana, təbiətə məhəbbətin tərənnümçüsü olan Novruz bayramını könül rahatlığı ilə qeyd etməyə başladı. Tariximizin yaddaşından süzülüb gələn Novruz bayramı bir çox çətinliklərdən ötərək bugünümüzə qovuşdu, özünün halal yerini tutdu.

Onu da qeyd edək ki, Novruz bayramı ali bəşəri duyğuların daşıyıcısı olaraq UNESCO-nun ümumdünya qeyri-maddi mədəni irs siyahısına daxil edilib, BMT Baş Məclisinin 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan olunub.

Dövlətimizin güclənməsi həm də insanların rifahının yüksəlməsi deməkdir. Bu mənada İlham Əliyevin insanların sosial təminatının gücləndirilməsinə yönəlik qərarlarını yüksək qiymətləndirən Azərbaycan ictimaiyyətinin ən böyük arzusu isə torpaqlarımızın işğaldan azad olunmasıdır. Xalqımız əmindir ki, Azərbaycan Prezidentinin müdrik siyasəti nəticəsində Novruz bayramını tezliklə Qarabağda qeyd edəcəyik.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Əli HƏSƏNOV:* "Bob Woodwardın "Fear: Trump in the White House" kitabında yayılan məlumat yalan və saxtadır"

## Prezident İlham Əliyevin guya Prezident Donald Trampa yanlış məlumat verməsi barədə iddiaların heç bir əsası yoxdur



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə irəli sürülən iddialarla bağlı AZƏRTAC-a açıqlama verib.

Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə "The Washington Post" qəzetində çalışan jurnalist Bob Woodwardın "Fear: Trump in the White House" kitabında əks olunmuş iddialar tam yalan və saxtadır. Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında cəmi bir dəfə - ABŞ-da keçirilmiş son prezident seçkilərindən dərhal sonra telefon danışığı olub, söhbət zamanı iki dövlət arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivi ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezidentin köməkçisi deyib ki, 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında iştirak etmək üçün ABŞ-a səfəri zamanı Prezident İlham Əliyevin ABŞ-ın dövlət başçısı ilə görüşü protokol xarakteri daşıyıb, həmin zaman heç bir söhbət olmayıb, yalnız foto-video çəkiliş həyata keçirilib. Buna görə də kitabda həmin görüşdə Azərbaycan Prezidentinin cənab Donald Trampa guya Çin Xalq Respublikasının Əfqanıstanda iqtisadi fəaliyyəti ilə bağlı hər hansı məlumat verməsi barədə irəli sürülən iddia "fake" informasiyadır və müəllifin fantaziyasından başqa bir şey deyil.

Əli Həsənov bildirib ki, ümumiyyətlə, Azərbaycan xarici siyasət məsələlərində yalnız öz milli maraqlarını rəhbər tutur və heç vaxt başqa ölkələr arasında siyasi, iqtisadi, humanitar və digər əlaqələrə müdaxilə etmir. Görünür, xaricdəki antiazərbaycan dairələr indi də davamlı şəkildə Azərbaycana qarşı "qara piar" kampaniyası aparan və "fake" xəbərlər üzrə ixtisaslaşmış "The Washington Post" nəşrinin əməkdaşı vasitəsilə ölkəmizin beynəlxalq imicini ləkələməyə, onun Çin Xalq Respublikası və Amerika Birləşmiş Ştatları ilə inkişaf edən əlaqələrinə xələl gətirməyə cəhd göstərirlər. Əminliklə deyə bilərik ki, belə çirkin əməllərin müəllifləri heç vaxt öz məqsədlərinə nail ola və Azərbaycanla tərəfdaşları arasında əlaqələrə zərbə vura bilməyəcəklər.

# Azərbaycan-Almaniya əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparılıb



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyaya səfəri çərçivəsində Federal Kanslerin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Yan Heker, Federal Prezident Administrasiyasının Xarici Siyasət İdarəsinin rəisi Tomas Baqqer və Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili, səfir Mixael Zibert ilə görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev, eyni zamanda, Almaniyanın xarici siyasət üzrə akademik dairələri ilə keçirilən "dəyirmi masa"da iştirak edib, həmçinin Bundestaqın nəzdindəki Alman Parlament Cəmiyyətində Xocalı soyqırımının ildönümü ilə bağlı təşkil olunan 7-ci "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik. Almaniya-Azərbaycan əməkdaşlığının perspektivləri" simpoziumuna qatılıb.

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş fikir mübadiləsi aparılıb.

Prezident Administrasiyasının rəsmisi ölkəmizin mürəkkəb geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütdüyünü, işğalçı Ermənistan istisna olmaqla, öz qonşuları ilə mehriban qonşuluq münasibətləri yaratdığını, regionda beynəlxalq əməkdaşlığın əsasını qoyduğunu vurğulayıb. O, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyində rolu, həyata keçirdiyi nəhəng regional layihələr, o cümlədən "Cənub qaz dəhlizi"nin icrası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, eləcə də bu layihələrin və Azərbaycanın çoxvektorlu xarici siyasətinin regionda sülh, sabitlik, inkişaf və əməkdaşlığa verdiyi töhfələr barədə məlumat verib. Şöbə müdiri həmçinin Ermənistanın hərbi təcavüzünün nəticələri, münaqişənin sülh yolu ilə həlli prosesinin gedişi, eləcə də Ermənistanın yeni rəhbərliyindən olan gözləntilərimizi həmsöhbətlərinin diqqətinə çatdırıb.

Görüşlərdə Azərbaycan və Almaniya arasında müxtəlif sahələrdə qarşılıqlı maraqlara söykənən konstruktiv əməkdaşlıq məsələləri, Almaniyanın Federal Kansleri Angela Merkelin ötən ilin avqustunda Azərbaycana səfərinin ikitərəfli münasibətlərdə yaratdığı yeni dinamika, rəsmi Berlinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair tutduğu ədalətli mövqe və münaqişənin həlli prosesinə dəstək imkanları, eləcə də ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanlar barədə ətraflı söhbət aparılıb. Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın regiondakı etibarlı tərəfdaşı, o cümlədən əsas iqtisadi tərəfdaşı adlandırıb, ölkəmizdə hökm sürən multikulturalizm və dini tolerantlıq mühitini yüksək qiymətləndirib, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları alqışlayıblar.

Hikmət Hacıyevin Berlində keçirdiyi görüşlərdə Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov və səfirliyin əməkdaşı Vüqar Qafarov da iştirak ediblər.

# Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin yeni hərbi hissəsi xidməti istifadəyə verilib





Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsindəki təmas xəttində xidməti-döyüş fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Dövlət Sərhəd Xidmətinə (DSX) həvalə olunduqdan sonra bu ərazilərdə dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi infrastrukturunun yaradılması tədbirləri sürətlə davam etdirilir. Sərhədçilər üçün ən müasir tələblərə cavab verən sərhəd döyüş məntəqələri, digər hərbi obyektlər qısa müddət ərzində tikilərək istifadəyə verilir.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin yeni hərbi hissəsi xidməti istifadəyə verilib.

Tədbirdən əvvəl Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoyub, qızılgül dəstələri düzüb, Azərbaycan Sərhəd Mühafizəsinin banisi olan ulu öndərə dərin hörmət və ehtiramlarını ifadə edib.

Hərbi hissənin açılışı münasibətilə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, DSX-nin bütün şəxsi heyəti üçün Ali Baş Komandanın tapşırıqlarını icra etməyin böyük şərəf və yüksək məsuliyyət olduğunu bildirib. E.Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqəti sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradıldığını qeyd edib.

Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinin dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsinin başlanğıcı olması xüsusi vurğulanıb, Azərbaycan sərhədçisinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmr və tapşırıqlarını böyük şərəflə icra etməyə hər zaman hazır olduğu bildirilib.

Tədbirdə iştirak edən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sərhədçiləri təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzulayıb.

Xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilib. Sonra hərbi hissəyə baxış keçirilib. Hərbi hissədə xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılıb. Yeni hərbi hissədə qərargah və idarəetmə bölmələri üçün binalar kompleksi, müddətli hərbi qulluqçuların kazarma binaları, hərbi qulluqçular və ailə üzvləri üçün xidməti mənzillər, tibb məntəqəsi, texniki təyinatlı binalar, döyüş texnikası parkı inşa olunub, 150 metr dərinlikdə artezian quyusu qazılıb.

Həmçinin yerli əhaliyə kömək məqsədilə Dövlət Sərhəd Xidməti tərəfindən yeni kənd tibb məntəqəsinin inşası davam etdirilir.

Təntənəli mərasimin bədii hissəsində Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin, rəqs ansamblının, vokal-instrumental qrupunun, tanınmış müğənnilərin ifaları, şəxsi heyət qarşısında çıxışları hərbi qulluqçular tərəfindən böyük rəğbətlə qarşılanıb.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti düşmənlə təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrində xidməti-döyüş fəaliyyətinin vəziyyəti ilə tanış olub, sərhədçi əsgərləri Novruz bayramı münasibətilə təbrik ediblər.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə kimsəsiz və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Novruz şənlikləri keçirilib











Heydər Əliyev Fondunun təşəbbüsü ilə martın 19-da Talassemiya Mərkəzində, Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində, Suraxanı rayonundakı 2 saylı, Nizami rayonundakı 1 saylı və Xətai rayonundakı 3 saylı uşaq evlərində Novruz bayramı münasibətilə şənliklər təşkil edilib.

AZƏRTAC xəbər verir ki, sosial layihələri, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan və kimsəsiz uşaqlar üçün mütəmadi olaraq bayram şənlikləri keçirir. Ənənəyə sadiq qalan fond bu təbəqədən olan uşaqlara növbəti dəfə sevinc bəxş etdi. İlaxır çərşənbəsi günündə təşkil edilən bayram şənliklərində balacalara əyləncəli proqramlar təqdim olundu. Onlara Novruz bayramının adət-ənənələri barədə məlumat verildi, viktorina və müxtəlif oyunlar keçirildi. Uşaqların sevincini bölüşmək, daim onların yanında olmaq kimi missiyanı üzərinə götürən Heydər Əliyev Fondunun təşkil etdiyi növbəti aksiya sayəsində balacalar daha birmənalı və yaddaqalan gün yaşadılar.

Tədbirlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gələcəyimiz olan uşaqlara diqqət və qayğısından danışıldı. Həmçinin fondun vitse-prezidenti Leyla Əliyevanın valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla mütəmadi şəkildə görüşdüyü, onların təlim-tərbiyəsi ilə maraqlandığı, uşaqlar və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili üçün təşkil edilən müxtəlif tədbirlər və proqramlarda onlarla birgə olduğu qeyd edildi.

Bayram şənlikləri uşaqların rəngarəng çıxışları ilə davam etdi. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar da öz məharətlərini nümayiş etdirdilər, şeirlər söylədilər, mahnılar oxudular, səhnəciklər göstərdilər.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən bayram süfrəsi açıldı.

Şənliklərdə çıxış edən valideynlər, tərbiyəçi müəllimlər bu xeyirxah işlərin himayədarı olan Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban Əliyevaya, vitse-prezidenti Leyla Əliyevaya minnətdarlıqlarını bildirdilər.

*Dərbənd meri:*

## "Bakının şəhərsalma təcrübəsini tətbiq etmək istəyirik"



"Azərbaycan paytaxtında nəhəng dəyişikliklər baş verib". Bunu "Report"a Dərbənd şəhərinin meri **Hizri Əbəkərov** bildirib.

O deyib ki, Bakının inkişaf yolunda çox böyük irəliləyişə nail olduğu göz qabağındadır: "Hər dəfə gələndə buna təəccüblənməmək olmur".

Mer köhnə "Qara şəhər" ərazisində salınmış "Bakı Ağşəhər" yaşayış kompleksi ilə tanış olduğunu söyləyib: "Burada müsbət mənada nəhəng dəyişikliklər var. Biz də sizin şəhərsalmadakı təcrübənizi öyrənib Dərbənddə də tətbiq etmək üçün buraya gəlmişik".

Qonaq Azərbaycanda doğru istiqamətli siyasət yürüdüldüyünü dilə gətirib: "Səmti doğru götürmüsünüz. Bakıda hamı Prezidentdən razılıq edir, ölkədə əvvəlki və indiki vəziyyəti müqayisə edirlər. Prezident tez-tez əhali ilə görüşür, hərtərəfli kömək edir. Xalqın qeydinə qalmaq yaxşı haldır".

*İnquşetiya paytaxtının meri:*

## "Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi sayəsində inkişaf edir"



"Bura gələrkən adi, əlbəttə ki, gözəl, amma dünyanın gördüyüm bir çox paytaxtları kimi şəhər görəcəyimi düşünürdüm. Amma tam səmimiyyətlə demək istəyirəm ki, Bakı çox heyranedicidir".

Bunu "Report"a Rusiya Federasiyası İnquşetiya Respublikasının paytaxtı Maqas şəhərinin meri **Beslan Tseçoyev** deyib.

Onun sözlərinə görə, bu gün Bakı həm tarixi, həm də müasir şəhər kimi inkişaf edir.

"Bu gün Maqası bəzilərinin dünyada analoqu olmayan bir sıra innovativ layihələrin həyata keçirildiyi smart-şəhər kimi qururuq. Maqas bu gün Rusiyada ən qabaqcıl şəhərdir. Bakı kimi, Maqas da şanlı minillik tarixə malikdir və müasir şəhər kimi inkişaf edir. Bəli, Bakı böyük şəhərdir, meqapolisdir, tamamilə fərqli miqyasdadır, amma burada özümə doğma bir şey gördüm. Şəhər rəngarəng və maraqlıdır", - mer bildirib.

B.Tseçoyev qeyd edib ki, Azərbaycan bu gün atası Heydər Əliyevin işini davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi sayəsində inkişaf edir.

"Şəhər meri kimi yox, bir insan kimi deyirəm. Əslində, ata Heydər Əliyev dahi olub, oğlu da atasının yolunu layiqlə davam etdirir. Burada çoxlu danışmaq lazım deyil, sadəcə, ətrafa boylanmaq kifayətdir", - B.Tseçoyev söyləyib.

# Növbəti simpozium

Almaniya Bundestaqının nəzdindəki Alman Parlament Cəmiyyətində 7-ci "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik. Almaniya-Azərbaycan əməkdaşlığının perspektivləri" simpoziumu keçirilib. Ənənəvi olaraq hər il Xocalı soyqırımının ildönümü ilə bağlı keçirilən simpozium Azərbaycanın Almaniyadakı səfirliyi, Alman-Azərbaycan Forumu, Almaniya Atlantik Cəmiyyətinin birgə təşkilatçılığı və SOCAR-ın Almaniya nümayəndəliyinin dəstəyi ilə baş tutub.

Simpoziumu giriş sözü ilə Alman-Azərbaycanın Forumunun sədri, keçmiş dövlət katibi Hans-Eberhard Şlayer açıb.

Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov tədbirdə çıxış edərək Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və Xocalı soyqırımı haqqında ətraflı məlumat verib. Səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrini, sülh prosesinin gedişini, Ermənistanın sülh danışıqlarında nümayiş etdirdiyi qeyri-konstruktiv mövqeyi diqqətə çatdırıb, eləcə də Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi alqışlayıb və bu ölkəni münaqişənin həllinə daha fəal surətdə töhfə verməyə çağırıb.

Azərbaycan-Almaniya münasibətlərinə toxunan səfir bu əlaqələrin tarixi və cari vəziyyəti barədə məlumat verib, Almaniyanın Federal Kansleri Angela Merkelin ötən ilin avqustunda ölkəmizə səfərinin münasibətlərə yeni dinamika verdiyini vurğulayıb. Azərbaycanın Almaniyanın regiondakı əsas iqtisadi tərəfdaşı olduğunu qeyd edən səfir Almaniya Kanslerinin səfəri zamanı onun və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə iş adamları ilə keçirilən görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da dərinləşməsinə dair konkret ideya və layihələrin irəli sürüldüyünü bildirib.

Sonra Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının xarici siyasət məsələləri üzrə sədr müavini Yohan Vadeful çıxış edib. O, Almaniya Kanslerinin Azərbaycana səfərinin nəticələrini təhlil edib, iki ölkə arasında yaxşı münasibətlərin olduğunu qeyd edib, Azərbaycanı etibarlı enerji tərəfdaşı adlandırıb. Münaqişə mövzusuna toxunan alman deputat Azərbaycan torpaqlarının Ermənistan tərəfindən beynəlxalq hüquqa zidd olaraq işğal edildiyini vurğulayıb. O, həmçinin ölkəmizin nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini və bu mövqedən istifadə edərək beynəlxalq nəqliyyat layihələrinin reallaşması üçün fəal əməkdaşlıq etdiyini qeyd edib.

Tədbirdə çıxış edən Almaniyanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili, səfir Mixael Zibert simpozium iştirakçılarını Almaniya hökuməti adından salamlayıb. Xocalı faciəsinin günahsız qurbanlarını qeyd edən alman diplomat münaqişənin həllinin eyni zamanda Xocalı qurbanları qarşısında bir məsuliyyət olduğunu və Almaniyanın ATƏT-in Minsk qrupunun üzvü olaraq danışıqlar prosesini dəstəklədiyini bildirib. O, münaqişəni regionun inkişafı üçün maneə adlandırıb və onun həllinin gətirəcəyi iqtisadi üstünlüklərə toxunub. M.Zibert, həmçinin Azərbaycan-Almaniya münasibətləri barədə danışıb, müxtəlif sahələrdə olan dinamik əlaqələri vurğulayıb. O, Azərbaycanın müsəlman Şərqində ilk dünyəvi dövlət qurduğunu və ölkəmizin dünyada qadınlara seçki hüququ verən ilk dövlətlərdən biri olduğunu qeyd edib.

Daha sonra tədbir Alman-Azərbaycan Forumunun sədr müavini, Bundestaqın keçmiş deputatı Helqa Daubun aparıcılıq etdiyi panel müzakirələrlə davam edib.

Almaniyanın İqtisadiyyat və Enerji Nazirliyinin dövlət katibi Tomas Barays iki ölkə arasında müxtəlif sahələrdə intensiv dialoq aparıldığını alqışlayıb. Alman şirkətlərinin Azərbaycandakı fəaliyyətinin XIX əsrə gedib çıxan tarixi barədə məlumat verən dövlət katibi Azərbaycan və Almaniya arasındakı tərəfdaşlığın ildən-ildə inkişaf etdiyini diqqətə çatdırıb. Tomas Barays Almaniya Kanslerinin Azərbaycana səfəri zamanı müzakirə edilmiş mövzular, ölkələrimiz arasında enerji, iqtisadi, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri barədə məlumat verib. O, Azərbaycanda investisiya mühitinin getdikcə daha yaxşı olduğunu diqqətə çatdırıb və ölkənin Dünya Bankının sonuncu "Doing Business" hesabatında 32 pillə irəliləməsini vurğulayıb.

Bundestaqın Sosial-Demokratlar Partiyasının (SPD) xarici siyasət üzrə sözçüsü Nils Şmit seçildiyi Baden-Vürtemberq federal torpağının Azərbaycanla 200 illik tarixə söykənən əlaqələri barədə məlumat verib. O, Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı, iqtisadi əməkdaşlıq strategiyasına töhfələrini yüksək qiymətləndirib. Eləcə də ölkəsinin Azərbaycanla həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyini qeyd edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanın müstəqillik tarixi, son 25 ildə əldə olunmuş nailiyyətlər və keçilmiş uzun inkişaf yolu barədə məlumat verib. O, əraziləri işğal olunmuş, bir milyon qaçqın və məcburi köçkünü olan gənc dövlətdə aparılmış ağıllı siyasətin nəticəsində qısa müddət ərzində yoxsulluğun 50 faizdən 4 faizə endirildiyini, savadlılıq səviyyəsinin 100 faizə çatdırıldığını, əhalinin 80 faizdən artığının internetə sərbəst çıxışının təmin edildiyini, maliyyə resurslarında şəffaf idarəetmənin tətbiq olunduğunu, "ASAN xidmət" vasitəsilə səmərəli sosial xidmətlər göstərildiyini, ölkəmizdə multikulturalizm və dini tolerantlıq mühitinin hökm sürdüyünü diqqətə çatdırıb. Hikmət Hacıyev Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrin Azərbaycan və digər ölkələrin iqtisadi və sosial həyatına, regional əməkdaşlığa, iştirakçı dövlətlər arasında siyasi dialoqa, eləcə də Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələri qeyd edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına toxunan şöbə müdiri münaqişənin yalnız mərhələli şəkildə həll edilməsinin mümkün olduğunu və ilkin mərhələdə Azərbaycan torpaqlarının işğaldan azad olunmasının və doğma yurdlarından qovulmuş azərbaycanlıların öz torpaqlarına qayıtmasının zəruri olduğunu qeyd edib. O, Ermənistanın bu münaqişə ilə özünü regionda təcrid vəziyyətinə saldığını və regional layihələrdən kənarda qaldığını diqqətə çatdırıb.

Nüfuzlu alman jurnalist Rixard Kissler özünün işğal altında olan torpaqlarımıza, o cümlədən Xocalı şəhərinə səfərindən danışıb, həmin ərazilərdə dağıntı və səfalətin hökm sürdüyünü diqqətə çatdırıb. Kissler Xocalı hadisələri zamanı dinc azərbaycanlı əhalinin erməni silahlı qüvvələri tərəfindən pusquya salınaraq atəş altına alınması, Azərbaycanın mədəni və dini abidələrinin, o cümlədən məscidlərin viran edilməsi barədə məlumat verib. Jurnalist, həmçinin Ermənistanın yeni baş nazirinin verdiyi populist bəyanatların münaqişənin həlli prosesinə nikbinliklə yanaşmaq üçün yer qoymadığını qeyd edib.

Boxum Rur Universitetinin beynəlxalq hüquq üzrə professoru Yoaxim Hayntse Ermənistanın işğal etdiyi ərazilərdə həyata keçirdiyi qanunsuz fəaliyyətə hüquqi qiymət verib. O, işğal olunmuş ərazilərdə etnik təmizləmə və əhalinin köçürülməsi yolu ilə demoqrafik vəziyyətin dəyişdirilməsi, eləcə də həmin ərazilərinin təbii sərvətlərinin istismar edilməsinin mövcud beynəlxalq hüquq normalarına görə cinayət hesab olunduğunu diqqətə çatdırıb. Alman alim Azərbaycanın kosmosdakı peykləri vasitəsilə sözügedən qanunsuz əməlləri izləmək iqtidarında olduğunu bildirib.

Tədbirdə yekun nitq söyləyən Azərbaycanın fəxri konsulu, keçmiş dövlət katibi Otto Hauzer Azərbaycan və Almaniya arasında cari əməkdaşlıq imkanlarından və perspektivlərdən danışıb.

Tədbirdə Bundestaqın deputatları, Milli Məclisin Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Almaniyanın Xarici İşlər Nazirliyi və digər hökumət qurumlarının nümayəndələri, siyasi, elmi və mədəni dairələrin, KİV-in, Almaniyada akkreditə olunmuş diplomatik nümayəndəliklərin, Azərbaycan diasporunun təmsilçiləri və Azərbaycanın Almaniyadakı səfirliyinin əməkdaşları iştirak ediblər.

# Prezidentin humanistliyi və Əli İnsanova verilən şans

Açığını deyim, azadlıqdan məhrum edilmiş keçmiş səhiyyə naziri Əli İnsanovun Prezidentin əfv sərəncamına salınması mənim üçün tamamilə gözlənilməz oldu. Sonrakı müşahidələrim göstərir ki, onun azadlığa çıxmasına belə reaksiya tək mənə mənsub deyil. Çoxları bu cür düşünür. Söhbət əsla qeyri-humanistlikdən getmir və gedə də bilməz.

Hər bir azərbaycanlı hörmətli Prezident İlham Əliyevin humanizmini yüksək qiymətləndirir, o cümlədən onun müxtəlif dövrlərə təsadüf edən çoxsaylı əfv aksiyalarına böyük dəyər verir. Dövlət başçısının humanist dəyərlərə sahib olması həqiqətən əvəzolunmaz nemətdir və insanlar onun böyük faydasını görürlər. Xalqımızın əziz bayramı Novruz ərəfəsində yüzlərlə ailənin sevincinə səbəb olması məhz elə Prezidentin böyük humanizminin nəticəsidir.

Elə adam tapmaq mümkün deyildir ki, böyük əfv sərəncamına görə Prezidentə minnətdarlığını ifadə etməsin. Çünki törətdiyi əməllərə görə qanuni əsaslarda azadlıqdan məhrum edilmiş insanları əvf etmək müstəsna olaraq Prezidentin səlahiyyətindədir. Elə buna görə də kimliyindən, siyasi düşüncəsindən və s. baxışlarından asılı olmayaraq azadlığa çıxanların hamısı Prezidentin humanist addımını lazımınca qiymətləndirdi. Daha doğrusu, malik olduğu insani keyfiyyətləri nümayiş etdirdi.

Lakin bir nəfər istisnadır. Keçmiş səhiyyə naziri Əli İnsanov azadlığa çıxan kimi ona azadlığı bəxş etmiş



Azərbaycan Prezidentinə təşəkkür etmək əvəzinə fərqli ünvanlara üz tutmağa üstünlük verdi. Beləliklə də, adi mənəvi insani dəyər anlayışına formal da olsa əməl etməyə lüzum görmədi. Prezidentin böyük humanizmi qarşısında sadəcə minnətdarlıq etmək kimi insani borcunu ödəməyi bacarmadı. Əlbəttə, bu da bir əxlaqdır və açığını deyim ki, heç də müsbət keyfiyyət kimi qiymətləndirilə bilməz. Məsələnin mahiyyətinə gəldikdə, mənim bildiyimə görə əsl həqiqət bundan ibarətdir ki, keçmiş səhiyyə naziri Əli İnsanovun azadlığa çıxarılmasını, onun özünün dediyinin tam əksinə olaraq, heç bir beynəlxalq təşkilat xahiş etməyib və bu mənada onun bəzi xarici dövlətlərə və beynəlxalq təşkilatlara minnətdarlıq etməsi, yumşaq desək, tamamilə yersizdir. Korrupsiya və vəzifə səlahiyyətlərini aşmaqda suçlanaraq azadlıqdan məhrum edilən birisini müdafiə etmək heç bir beynəlxalq təşkilatın ağlına belə gəlməz.

Əli İnsanovun azadlığa çıxması məhz elə haldır ki, bu, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və böyük humanizmi sayəsində reallaşıb. Bunu bilməmək, qiymətləndirməmək nəinki səhvdir, həm də hesab edirəm ki, böyük qəbahətdir. Onu da qeyd edim ki, bu fikri çoxları bölüşür.

Əli İnsanov hər dəfə ciddi suçlarına görə qanunla cəzasını alıb. Mən onun əməllərinə hüquqi qiymət vermək istəmirəm. Hüquqi qiymət məhkəmə tərəfindən verilir. Ancaq onun suçunun mənəvi tərəfi də var. Bunun da adı Heydər Əliyev yoluna xəyanətdir. Azadlığa çıxan kimi verdiyi bəyanatlar deməyə əsas verir ki, o, əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən təkrarlamağa hazırdır. Heydər Əliyev yoluna sadiq olan insanlar bu xəyanəti ona bağışlamırlar və heç zaman bağışlamayacaqlar.

Əli İnsanovun digər səhvi özünü Qərbi azərbaycanlıların ağsaqqalı elan etməsidir. Açığı, sözügedən çoxsaylı toplum heç zaman onu özünə ağsaqqal seçməyib. Zamanında Qərbi azərbaycanlıların lideri Heydər Əliyev idi, indi isə Azərbaycan Prezidenti İlham Əliyevdir.

Azərbaycan xalqının lideri sözügedən toplumun da şəksiz lideridir. Qərbi Azərbaycan əsilli insanlar Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər, onu qətiyyətlə müdafiə edirlər, yolunda və uğrunda hər cür fədakarlıq göstərməyə hazırdırlar.

Bir də ki, o insanlar mövqeyini, dövlətə və dövlətçiliyə bağlılığını heç zaman dəyişmirlər və dəyişmək fikrində deyillər. Xırda hislər, cılız ambisiyaçılıq onlara xas deyil və heç zaman xas olmayıb. Onlar üçün ən böyük sevinc və mənəvi qida mənbəyi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın daha da çiçəklənməsi, qüdrətinin artması, insanların rifahının yüksəlməsidir.

Prezident İlham Əliyev böyük humanistliyini göstərdi. Növbədə Əli İnsanovun Prezident humanistliyinin mahiyyətini və miqyasını dərk etməsidir. Prezidentin əfvi Əli İnsanov üçün ciddi şansdır. Bu şansı necə qiymətləndirmək onun işidir. İstərdik ki, Əli İnsanov olub keçənlərdən düzgün nəticə cıxarsın.

Yaxşı olar ki, Əli İnsanov vaxtilə dəfələrlə sədaqət andı içdiyi və onu yüksək dövlət postuna - səhiyyə naziri vəzifəsinə təyin etmiş Heydər Əliyevin xatirəsinə hörmət əlaməti olaraq onun məzarını ziyarət edib, çiçəklər qoysun. Xalqımızın çoxəsrlik ənənəsinə uyğun olaraq onun belə bir hərəkəti Novruz bayramında çox yerinə düşərdi.

***Əli ƏHMƏDOV,***
***Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi***

# Amerika Analitik Mərkəzi Prezident Əliyevin yüzlərlə məhkumun əfv edilməsi haqqında sərəncamını alqışlayır

Vaşinqtondakı analitik mərkəz Novruz bayramı münasibətilə bəzi məhkumların əfv edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə əlaqədar bəyanat verib. Bəyanatda deyilir ki, Azərbaycan Prezidenti İlham Əliyev 431 nəfər məhkumun əfv edilməsi barədə martın 16-da imzaladığı sərəncam son aylarda Azərbaycanda başlanmış siyasi və iqtisadi islahatlar prosesinin daha bir müsbət əlaməti kimi, həm yerli, həm də beynəlxalq birlik tərəfindən müsbət qarşılanıb.

Xəzər Siyasi Mərkəzinin Direktorlar Şurasının üzvü səfir Riçard Houqland Azərbaycan Prezidentinin bu sərəncamını şərh edərək bildirib ki, postsovet dövlətlərində həyata keçirilən mühüm islahatlar çox vaxt dünyada daha maraqlı sensasiyalı xəbərlər fonunda diqqətdən kənarda qalır. Keçmiş diplomat 431 nəfər məhkumun əfv edilməsini alqışlayaraq vurğulayıb: “Mən qəti əminəm ki, biz Azərbaycanı bu islahatlar yoluna qədəm qoyması münasibətilə təbrik etməliyik. Bu xəbərləri gerçəklik kimi qəbul etmək lazımdır. Bu cəsarətli addım Azərbaycanın demokratik dünya birliyinə daha inamla daxil olmasına imkan verəcək, o, dünya arenasında öz qanuni yerini tutacaq”.

Bəyanatda daha sonra deyilir ki, Azərbaycan rəhbərliyinin bu qərarı ölkədə işgüzar mühitin yaxşılaşdırılmasına və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş geniş spektrli iqtisadi və siyasi islahatların tərkib hissəsidir. Dünya Bankı və digər beynəlxalq təşkilatlar bu islahatları bəyənirlər. Biznes fəaliyyətinin rahatlığı göstəricisinə görə Dünya Bankının reytinqində Azərbaycan dünyada 25-ci yerə çıxıb.

Sənədin sonunda qeyd edildiyi kimi, tamamilə aşkardır ki, Azərbaycan rəhbərliyi son bir neçə ayda başladığı islahatlar xəttini davam etdirmək əzmindədir, ona görə də beynəlxalq birlik bu ölkənin seçdiyi yolu fəal dəstəkləməli və təşviq etməlidir.

***AZƏRTAC***

## Bağışlamaq qəlbin böyüklüyüdür

# Məhkumluqdan azadlığa buraxılanlar xeyirxahlığa görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər

Azərbaycan Prezidentinin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” 16 mart 2019-cu il tarixli sərəncamının xoş sədası ölkəmizin şəhər və rayonlarında kəndbəkənd, evbəev dolaşmaqdadır. Dövlət başçısının bu sərəncamına əsasən cinayət törədərək məhkum olan bir sıra şəxslərin ailə vəziyyətini, sağlamlıq durumunu, cəzaçəkmə müddətində davranışını, nizam-intizamlı olmasını və s. amilləri nəzərə alaraq vaxtından əvvəl azadlığa buraxılmasını nəinki ailə üzvləri, qohumları, eləcə də onları tanıyıb-tanımamasından asılı olmayaraq bütün insanlar məmnunluqla qarşılamışlar.











Bunu bu günlərdə redaksiyamıza ünvanlanmış məktub və teleqramlardan, telefon zənglərindən və internet mesajlarından da aydın görmək olar. Bakıdan oxucumuz Mehrac Əliyev yazır: “Ölkə Prezidentinin Novruz bayramı ərəfəsində məhkumluqda olan insanların bir qisminin vaxtından əvvəl azadlığa buraxılması barədə sərəncamını ürəkdən alqışlayıram. Azadlığa buraxılanlar arasında nə qohumum var, nə də tanışım, sadəcə olaraq qəzetiniz vasitəsilə dövlət başçısına bu humanist addımına görə ağsaqqal vətəndaş olaraq təşəkkürümü bildirirəm”. Qusardan, Qubadan, Lənkərandan, Sumqayıtdan, Gəncədən, Şəmkirdən, Goranboydan, Biləsuvardan və digər yerlərdən aldığımız teleqramlarda da buna oxşar fikirlər ifadə olunur.

İnsanları bu qədər sevindirən, onlarda ikiqat bayram əhvali-ruhiyyəsi yaradan bu əfv sərəncamı ümumilikdə 431 nəfərə şamil olunub. Bəzi cəzaçəkmə müəssisələrində sərəncamın icrası prosesində Ədliyyə Nazirliyi Penitensiar Xidmətin nümayəndələri, Ədliyyə Nazirliyi Cəzaların İcrasına Nəzarət İdarəsinin aparıcı məsləhətçisi, ədliyyə müşaviri Eldar Abdulrəhmanov, hüquq müdafiəçisi Rauf Zeyni və qəzetimizin təmsilçiləri də iştirak ediblər. Sərəncamın icrası ilə əlaqədar Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qaradağ rayonundakı 5 saylı cəzaçəkmə müəssisəsindən 33 nəfər cəzasının qalan hissəsindən əfv olunaraq vaxtından əvvəl azadlığa buraxılmışdır. Bu münasibətlə təşkil edilən mərasimdə Penitensiar Xidmətin tərbiyə işlərinin təşkili idarəsinin rəisi, ədliyyə polkovniki Ağəli Xəlilov Prezidentin humanizm prinsiplərinə əsaslanan sərəncamından danışdı. O, azadlığa buraxılan məhkumlara bir də həyatda belə səhvlərə yol verməməyi və respublikamızın inkişafı naminə dəyərli işlərlə məşğul olmağı tövsiyə etdi.

Əfvə düşmüş ixtisasca hüquqşünas olan Bakı şəhər sakini Mehdi Əliyev bildirdi ki, yaxın tanışıma bankdan kredit götürməsi üçün zamin durmuşdum. Qaydalara əməl olunmadığından sonda mən dəmir barmaqlıqlar arasına düşməli oldum. Üç övlad atasıyam. Səhhətimdə və ailəmdə yaranan problemlərlə əlaqədar müraciət edib Prezidentdən kömək istədim. Cəzamın 3 ilini çəkmişdim, qalan 1 il 10 ayımı bağışladılar. Çox sağ olsun, Prezident müraciətimə müsbət cavab verdi. Bütün bunlara görə dövlət başçısına minnətdarlığımı bildirirəm.

Azadlığa buraxılanlardan şirvanlı Əlikram Xurşidov, Masallıdan Orxan Bağırov, Lerikdən Nurşən Rəhimov, Daşkəsənin Quşçu kəndindən Xəyal Ələsgərov və başqaları da vaxtından əvvəl azadlığa buraxıldıqlarına görə ölkə rəhbərinə minnətdarlıqlarını bildirdilər.

Xatırladaq ki, Prezidentin imzaladığı sonuncu əfv sərəncamı 1995-ci ildən başlayaraq məhkum edilmiş şəxslərə tətbiq edilən sayca 65-ci əfv sərəncamıdır. Onlardan 32 sərəncam ulu öndər Heydər Əliyev, 33 sərəncam isə Prezident İlham Əliyev tərəfindən imzalanıb. Bugünə qədər əfv sərəncamları 7973 nəfərə şamil edilib, onlardan 4645 nəfəri penitensiar müəssisələrdə cəza çəkən şəxslər olub. 16 mart 2019-cu il tarixdə imzalanmış əfv sərəncamı isə 431 nəfərə şamil edilib. Onlardan 399 nəfəri azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxsin cəzası müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib.

Sərəncamın icrası ilə bağlı Qobustan həbsxanasında olarkən keçirilən tədbirdə ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar Kamil Sədrəddinov, Daşqın Quliyev və Yadigar Baxşəliyevə ömürlükdən azad olunduqları diqqətə çatdırıldı, Rəşad Hacıyevə və İlkin Abdullayevə isə cəzasının qalan hissəsindən azad olunaraq azadlığa buraxıldığı bildirildi.

Ömürlük azadlıqdan məhrum olunmuşların hər üçü, xüsusən də məhkum Kamil Sədrəddinov mətbuat nümayəndələrinə bildirdi ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasətinə rəğmən haqqa, ədalətə, düzlüyə, şəffaflığa önəm verilir. Müraciətlərimizi nəzərə alaraq bizə edilən mərhəmətə və xeyirxahlığa görə həm öz adımdan, həm də əfvə düşmüş yoldaşlarım adından Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı, sonsuz təşəkkürümü bildirirəm.

Əfv sərəncamı 14 xarici vətəndaşa, o cümlədən 3 Gürcüstan, 2 Rusiya, 2 Nigeriya, hərəsinə 1-i olmaqla Türkiyə, İran, Özbəkistan, Çin, Kamerun, Hindistan, Belarus vətəndaşlarına da şamil olunub. Əfv edilmiş və azadlığa buraxılmış Nigeriya vətəndaşı Obu Onyedike Mozes buna görə Prezident İlham Əliyevə təşəkkür edərək bildirdi ki, ərizə yazıb kömək istəyəndə azadlığa çıxacağıma ümidli idim: “Əmin idim ki, Prezident İlham Əliyev mənə də mərhəmət göstərəcək, çünki o, humanistdir. Mən həbsxanada dörd il keçirdim və indi o böyük şəxsiyyətin qayğısı sayəsində azadlıqdayam. Azərbaycan hökumətinə təşəkkür edirəm. Mən Azərbaycan vətəndaşlarına təşəkkür edirəm. Bundan sonra həmişə Azərbaycan xalqı, Azərbaycan Prezidenti və Heydər Əliyev Fondu üçün dua edəcəyəm”.

Hər zaman olduğu kimi, bu dəfə də əfv sərəncamı məhkumluqla vidalaşanlar, cəzası yüngülləşənlər və onların ailə üzvləri ilə bərabər, ictimaiyyətin bütün üzvləri tərəfindən razılıqla qarşılandı.

***Rəhman SALMANLI,***
***Ağəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodli Kitabxanasının yaradıcısının şərəfinə təşkil edilən təntənəli qəbulda iştirak edib




M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, akademik Nərgiz Paşayeva martın 15-də Oksford Universitetinin Bodli kitabxanasının rəhbəri Riçard Ovendenin dəvəti ilə Bodli Kitabxanasının yaradıcısı Ser Tomas Bodlinin şərəfinə universitetin ali akademik heyəti və fəxri qonaqları üçün təşkil edilmiş 31-ci təntənəli tədbirdə iştirak edib. (https://www.bodleian.ox.ac.uk/).

Oksford Universiteti nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, Ser Tomas Bodlinin xatirəsinə və onun filantropik fəaliyyətinə həsr edilmiş bu mühüm ənənəvi tədbirdə hər il məşhur alimlər, ictimai xadimlər, Böyük Britaniya Parlamentinin üzvləri, Oksford Universitetinin əsas akademik tərəfdaşları, universitetin ali rəhbərliyi və administrasiyası iştirak edir.

Xatırladaq ki, 2018-ci il oktyabrın 11-də MDU-nun Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayeva təntənəli surətdə Oksford Universitetinin kansleri lord Patten Barnesin başçılıq etdiyi Xeyriyyəçilər Komitəsinə üzv qəbul edilib. Professor Nərgiz Paşayeva məşhur alimlər, ictimai xadimlər və Oksford Universitetinin qarşısında xüsusi xidmətləri olan nüfuzlu təşkilatlardan ibarət Xeyriyyəçilər Komitəsinə qəbul edilmiş Azərbaycanın ilk akademik nümayəndəsi olub. *Lord Patten Barnes vurğulayıb ki, Nərgiz Paşayeva “Oksford Universitetinin böyük dostu və akademik tərəfdaşıdır”.*

Builki təntənəli qəbulun 80 nəfərə yaxın nüfuzlu qonaqlarını Oksfordun əsas tədqiqat kitabxanası olan Ueston Kitabxanasının (Weston Library, https://www.bodleian.ox.ac.uk/weston) Bləkvell Hollda (Blackwell Hall) Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden (Richard Ovenden, https://www.bodleian.ox.ac.uk/weston/about/librarian) salamlayıb.

Sonra kiçik konfrans zalında “Tanınmamış qanunvericilər: ədəbiyyat və cəmiyyət” (Unacknowledged legislators: literature and society”) mövzusunda ekspert diskussiyası keçirilib. Diskussiya britaniyalı yazıçı, jurnalist və tənqidçi (1992-2002-ci illərdə “The Times” nəşrinin redaktoru, 2002-2016-cı illərdə “The Times” nəşrinə ədəbi əlavənin redaktoru) ser Piter Stothardın (Sir Peter Stothard, https://www.revolvy.com/page/Peter-Stothard) sədrliyi ilə keçirilib. Diskussiyanın digər aparıcıları nigeriyalı şair və çoxsaylı romanların müəllifi, Buker mükafatı laureatı, cəngavər ordenli, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü Ben Okri (Ben Okri, https://www.britannica.com/biography/Ben-Okri) və britaniyalı yazıçı və tarixçi, professor, Britaniya Akademiyasının fəxri üzvü, cəngavər ordenli, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü və onun ilk (2017-ci ildə) qadın prezidenti Deym Marina Uorner olmuşdur. (Dame Marina Sarah Warner, https://www.thebritishacademy.ac.uk/fellows/marina-warner-FBA).

Tədbir çərçivəsində Bodli Kitabxanasının ilk tərkib hissəsindən biri olan, XV əsrdə yaradılmış İlahiyyat Məktəbində (Divinity School, https://www.bodleian.ox.ac.uk/whatson/venue-hire/rooms-available#div_school) təntənəli ziyafət verilib. Qeyd edək ki, İlahiyyat Məktəbində tədris məşğələləri və imtahanlarla bərabər çox sayda mühüm görüşlər, hətta Kral səfərləri də olub. Bu binanın tavanı Avropa Qotik memarlığının ən böyük nailiyyətlərindən biri hesab edilir.

Rəsmi hissədə Riçard Ovenden, həmçinin Oksford Universitetinin kansleri lord Patten Barnes qonaqların qarşısında çıxış ediblər (https://www.ox.ac.uk/about/organisation/university-officers/chancellor?wssl=1).

*Bodli Kitabxanasının rəhbəri R.Ovenden rəsmi qəbul zamanı çıxışında Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini xüsusi qeyd edib. Özlüyündə çox şeyə dəlalət edən bu fakt mərkəzin elmi-akademik, təhsil-maarifçilik və tarix-arxeologiya sahələrində gərgin işinin nəticəsini təsdiq edir.*

Xatırladaq ki, professor Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetinin nəzdində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildən Azərbaycanın, Qafqazın və Orta Asiyanın zəngin tarixi-mədəni irsinin öyrənilməsinə və onu Qərbin elmi-akademik dairələrində populyarlaşdırmaq məqsədinə xidmət edir (https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus). 2018-ci il mayın 23-də Klarendon Kollecində Oksford Universitetinin vitse-kansleri, professor Luiz Riçardson və professor Nərgiz Paşayeva tərəfindən imzalanmış sazişə əsasən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində daimi əsasda onun ayrılmaz tərkib hissəsi kimi fəaliyyətə başlayıb. Bu fakt, heç şübhəsiz, mədəni, elmi və humanitar miqyaslı tarixi əhəmiyyətli hadisədir. *Təsadüfi deyil ki, bu hadisəni Azərbaycanda elm, mədəniyyət və təhsil sahəsində “Əsrin kontraktı” adlandırdılar.* Elmi Mərkəz yaradıldığı gündən bir sıra mühüm elmi-akademik layihə həyata keçirib. Onların arasında elmi-praktiki konfransları, şərqşünas alim Yevgeni Bertelsin (1890-1957) “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” (The Great Azerbaijani Poet Nizami) kitabının ingilis dilinə ilk akademik tərcüməsini, mərkəzin dəstəyi ilə altı tələbənin Oksford Universitetində təhsil almasını, Oksford Universitetinin arxeoloqları tərəfindən Bərdə şəhərində qazıntılar aparılmasını və başqalarını qeyd etmək olar.

2018-ci ilin aprel ayında akademik Nərgiz Paşayevanın Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden ilə kitabxananın əsas binasında keçirilmiş işgüzar görüşündə tərəflər Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini müzakirə ediblər. Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi barədə Nərgiz Paşayevanın irəli sürdüyü təklif Britaniya tərəfindən müsbət qəbul edilib və bu, dahi Azərbaycan şair-mütəfəkkirinin dərin fəlsəfəsində və yaradıcılığında təcəssüm olunan humanist, ümumbəşəri ideyalara verilən daha bir layiqli qiymət olub.

Bodli Kitabxanasının rəhbəri və Oksford Universitetinin kansleri 2018-ci ildə kitabxana üçün xüsusi əhəmiyyət kəsb edən hadisələr arasında dövrünün çox məşhur ingilis şair və dramaturqu, 1913-cü ildə şair-laureat olmuş Robert Seymur Bricesin (1844-1930) https://www.poetryfoundation.org/poets/robert-bridges) arxivinin əldə edilməsini də qeyd edib. Brices ingilis metrikası sahəsində dərin tədqiqatlarla məşğul olub və ingilis şeirinin tonik mənşəyi barədə öz nəzəriyyəsini yaradıb. 2018-ci ilin noyabr ayında Bricesin arxivi, o cümlədən onun yaxın dostu, ingilis şair və katolik keşiş Cerard Menli Hopkinskin (1844-1889, https://www.poetryfoundation.org/poets/gerard-manley-hopkins) məktubları və əlyazmaları, habelə yazıçı və şair Tomas Hardinin (1840-1928), yazıçı və şair Redyard Kiplinqin (1865-1936) və o dövrün bir sıra başqa yazıçı və şairlərinin məktubları Robert Bricesin vərəsələri tərəfindən Bodli Kitabxanasına verilib. Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden deyib: “Bricesin arxivinin əhəmiyyəti bundadır ki, o, XIX-XX əsrlərin böyük yazıçılarının şəxsiyyətini anlamaqda və daha yüksək qiymətləndirməkdə bizə kömək edir”.

Təntənəli tədbirin sonunda dünya şöhrətli hindistanlı iqtisadçı və filosof, Şərəf Kavalerləri ordenli, Britaniya Akademiyasının üzvü, 1998-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı, professor Amartiya Sen (https://www.nobelprize.org/prizes/economic-sciences/1998/sen/biographical/) Bodli medalı ilə təltif edilib (https://oxfordliteraryfestival.org/literature-events/2019/april-3/bodley-lecture-and-award-of-bodley-medal). Qeyd edək ki, Bodli medalı ədəbiyyat, mədəniyyət və informasiya mübadiləsi kimi sahələrə verdiyi sanballı fərdi töhfəyə görə, habelə Bodli Kitabxanasını təkcə Oksfordun deyil, bütün dünyanın kitab xəzinəsi hesab edən Ser Tomas Bodlinin ideallarına çatmağa kömək etdiyinə görə Bodli Kitabxanası tərəfindən verilir. Məlumat üçün bildirək ki, Amartiya Sen bəşəriyyətin və insanın inkişafı indeksi haqqında BMT-nin illik hesabatlarının konseptual strukturunun ifadə edilməsinə sanballı töhfəsi ilə məşhurdur. Alim “rifahın iqtisadi nəzəriyyəsinə töhfəyə görə” Nobel mükafatına layiq görülüb.

Bodli Kitabxanası (https://www.bodleian.ox.ac.uk/) Oksfordun əsas kitabxanasıdır. Bu kitabxana Avropada ən qədim kitabxana hesab edilmək hüququ uğrunda Vatikan Kitabxanası ilə, ölkəsinin ən iri kitab toplusu titulu uğrunda Britaniya Kitabxanası ilə bəhsə girir. Bodli qrupuna daxil olan bütün kitabxanalarda 13 milyondan çox mətbu nüsxə və digər artefaktlar var.

Kitabxananın kitab fondu XIV əsrdə Vuster Yepiskopu Uilyam Kobenin (1327-ci ildə vəfat edib) vəsiyyətinə əsasən yaradılmış ilk məlum Oksford Kitabxanasından başlanır. Kitabxana Kraliça I Yelizavetanın sarayında çalışmış alim və diplomat Ser Tomas Bodlinin (1545-1613) sayəsində faktiki olaraq xilas edilib və ikinci həyatını qazanıb. 1598-ci ildə Ser Bodlinin səyləri ilə köhnə kitabxana yenidən qurularaq təqribən 2500 kitabdan ibarət kolleksiyanın saxlanması üçün uyğunlaşdırılıb, kitabxanaçı təyin edilib və 1602-ci il noyabrın 8-də kitabxananın açılışı olub. Bodlinin gördüyü işlər bununla bitmir. 1610-cu ildə o, ölkədə buraxılan bütün nəşrlərin zəruri nüsxəsini almaq hüququna nail olub. Ser Bodlinin ölümündən sonra da kitabxana fəaliyyətini davam etdirərək bütün Avropadan alimləri cəlb edən nəşrlər kolleksiyasına çevrilib.

Oksford Universitetinin ayrılmaz tərkib hissəsi olan Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyəti dünyanın aparıcı akademik və ictimai xadimlərinin - alimlərin, məşhur yazıçıların, siyasətçilərin, jurnalistlərin daimi diqqət mərkəzindədir. Həqiqətən çox önəmlidir ki, mərkəzin yorulmaq bilməyən elmi və funksional fəaliyyəti sayəsində Azərbaycanın mədəni, tarixi və ədəbi irsi qarşısında yeni imkanlar və üfüqlər açılır.

# Bakının Novruz növrağı

## Bir əli xonçalı, bir əli sazlı Novruz























Artıq neçə həftədir Novruzqabağı çərşənbələrin xoş ovqatı ilə yaşayan xalqımız bayramın özünü də sevinc və təntənə ilə qeyd edir. Yurdumuzun hər guşəsində olduğu kimi, paytaxtda da əsl Novruz əhvali-ruhiyyəsi yaşanmaqdadır. Dünən Bakının mərkəzində, Dənizkənarı milli parkda, İçərişəhərdə düzənlənən bayram tədbirləri bir bayram çərçivəsindən çıxaraq insanların şadlığının, arzu və diləklərinin, birlik və həmrəyliklərinin böyük təntənəsinə çevrilmişdi.

Hava bir qədər sazaqlı, bir az da yağmurlu olsa belə, təbiətin oyanışı aydınca hiss edilirdi. Təbiətin oyanışı isə həmişə ürəklərdə xoş arzular yaradır, saf niyyətlər oyadır.

Yurdumuzda təbiət həmişə Novruzun gəlişi ilə canlanır. O Novruzun ki, əsrlərin sınağından keçib, adət-ənənələrimizi yaşadıb, insanları səmimiyyət və mərhəmətə çağırıb, onları bir-biri ilə mehriban olmağa səsləyib, umu-küsüyə isə heç vaxt yol verməyib.

Elə bütün bunlara görə də xalqımızın qəlbindən və yaddaşından, həyatından və məişətindən Novruzu heç 70 il hökm sürən sovet rejimi də çıxara bilməyib. Bu gün isə Novruz azad, müstəqil Azərbaycanı el-el, oymaq-oymaq dolaşmaqdadır. Şənliklərin mərkəzi, təbii ki, paytaxt şəhərimizdir. Burada mahnı oxuyan, rəqs edən kim, folklorumuzu, el sənətkarlığını nümayiş etdirən kim, Novruz atributlarını bir daha araya gətirən kim...

Yarmarkalarda, ticarət şəbəkələrində bayram alış-verişi davam edirdi.

Hələ 10 il bundan əvvəl Novruz bayramı UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bir il sonra isə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında 21 mart Beynəlxalq Novruz Günü elan olunub.

Ölkəmizdə xalqın bu sevimli bayramı dövlət səviyyəsində qeyd edilir. Dünən də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqla birlikdə olmaqları, bayram sevincini paylaşmaqları insanların fərəhini daha da artırdı. Üzlərdən, gözlərdən yalnız sevinc oxunurdu. Qoca, cavan, uşaq, hamı əsl bayram əhvali-ruhiyyəsi ilə yaşayırdı.

Bakıdakı şənliklərin çalçağırı məmləkətimizin hər tərəfinə gedib çatırdı. Paytaxtda isə Naxçıvandakı, Lənkərandakı, Gəncədəki, Qazaxdakı, Bərdədəki, Qubadakı, Balakəndəki... bayram şənliklərinin səsi əks-səda verirdi.

Dünən səhərdən axşamadək Bakıda qələbəlik idi. İnsanlar bir-biri ilə bayramlaşırdı. Kimi təbrikini sözlə, kimi sadəcə, mehriban baxışla çatdırırdı. Kimi də, deyildiyi kimi, öz istedadını nümayiş etdirirdi.

Axşama doğru isə hərə öz evinə tələsdi. İnanca görə, İlaxır çərşənbənin axşamında hərə öz evində, öz ocağının başında, öz süfrəsinin ətrafında olmalıdır. Dünən ilaxır çərşənbələrin sonuncusu - Torpaq çərşənbəsi idi...

Bir inancımız da var: İlaxır çərşənbə ilə bayram üst-üstə düşərsə, il uğurlu gələr. Bu dəfə İlaxır çərşənbə ilə Novruz sanki bir-birinə calanıblar...

Bütün illərimiz uğurlu olsun! Yandırdığımız tonqalların yanında qəlbimizdə tutduğumuz cəmi xoş niyyətlərimizə çataq. Əlimiz-ünümüz yetməyən, lakin tezliklə qovuşacağımız yurd yerlərimizdə, doğma Qarabağ torpağında beləcə tonqallar yandıraq.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***




## "Azercell" abunəçilərini sevindirməyə davam edir

"Azercell" abunəçilərini Novruz bayramı ərəfəsində sevindirməyə davam edir. Bu dəfə şirkət mart ayının 19-dan 31-dək hər yeni Fakturasız Xətt nömrə alan abunəçiyə şəbəkədaxili danışıqlar üçün pulsuz 500 dəqiqə hədiyyə təqdim edir.

Şirkət bayramlarda ölkə xaricinə sayahət edən abunəçilərini də unutmayıb.

"Azercell" rominq internet paketlərinin çalışdığı ölkələr siyahısını növbəti dəfə genişləndirərək, siyahıya BƏƏ və Çin ölkələrini də əlavə edib. Belə ki, artıq abunəçilər 52 ölkədə 70-dən çox operatorun şəbəkəsində Rominq İnternet Paketlərindən istifadə etmə imkanına malikdirlər.

Qeyd edək ki, abunəçilərə rominqdə internet xidmətlərindən faydalanmaq üçün 2 paket təqdim edir: 19.90 AZN ödəməklə 1GB həcmində internet paketi və yaxud 9.90 AZN ödəməklə 400MB həcmində internet paketi.

Xatirladaq ki, hazırda Türkiyə, Gürcüstan, ABŞ, Qətər, Belarus, Finlandiya, Özbəkistan, Yeni Zelandiya, BƏƏ və Çin kimi populyar istiqamətlərdə "Azercell" abunəçiləri prioritet operatoru seçmək zərurəti olmadan istənilən operatorun şəbəkəsində internet xidmətindən istifadə edə bilərlər, çünki rominq internet paketləri həmin ölkələrdə bütün şəbəkələr üçün etibarlıdır.

***"Azərbaycan"***

# "Dədə Qorqud"un üç tonqalı qələbə rəmzidir!

## El-obamıza Novruz gələndə dağların zirvəsində qalanardı bu ocaqlar...

Mart ilin ən sevimli aylarından biridir. İlk növbədə ona görə ki, məhz bu ayda ana təbiət qış yuxusundan oyanır, torpaq cana gəlir, ötən ilin payızından isti ölkələrə uçub getmiş köçəri quşlar geri qayıdaraq ağacların budağında quruyub qalan yuvalarını bərpa edir.



Bununla da bir daha təsdiqlənir ki, yaşıl donlu bahar ömrümüzə - həyatımıza və həyətimizə ayaq başmaqdadır, ana təbiət hərdən şıltaqlıq edib üz-gözünü bozartsa da, lap elə qarı nənənin çəpişlərini vədəsiz yağan qar, çovğun qorxutsa da...

Təbiətin "oyanış ayı"nda çayların buzu əriyir, arxın kənarlarında yerin yeddi qatına kök atmış yarpız, gicitkən soyuq-sazaqdan qorxmayıb günəşə boylanır. Zirvəsi bəyaz dağlar baharın gəlişini duyub ağ çalmasını açmağa, yaşıl şala bürünməyə hazırlaşır.

Hələ bir qaya dibinə sığınmış novruzgülünə baxasız. Elə bilir ki, ondan tez oyanan yoxdur. Amma baxıb görəndə ki, danaqıran "onu yuxuya verib", boynunu əyib kövrəlir, kol dibində bəndə düşən bənövşəni səsləyir, təbiət yenidən canlanır, qış donunu soyunmaqla yeni bir fəslin gəlişindən xəbər verir, başlayır o da nazlanmağa.

Novruz günlərinə qədər dörd çərşənbə yol gələn yaz fəsli Sudan keçib, Odda bişib, Yelin qanadlarında özünü Torpağa yetirəndə görüb ki, qarçiçəyi yerin bağrını yarıb. Novruzun təbiətə gətirdiyi oyanış, deyirlər ki, aran yerlərində daha çox hiss olunur. Lakin dağların Novruz bayramını necə qarşılamasının şahidi olanlar bu həqiqəti bəzən qəbul edə bilmirlər, onun da səbəbləri var.

Novruz bayramı günlərində (hətta çərşənbələr başlayandan) qəmli notlardan uzaq olmaq lazımdır. Bu da folklorumuzdan gəlmədir: dəm dəmi gətirər, qəm də qəmi. Ağrı-acılarımızı tonqalda yandırırıq ki, yeni baharımız, yazımız xoş əhvali-ruhiyyə gətirsin, şadlıq və sevincli günlər qədəm bassın həyatımıza. Belə günlərdə qəmlənmək olmaz, lakin nə yazıqlar ki, bu da hələlik mümkün deyil. Düşmən tapdağında qalan yurdlarımızda Novruz tonqalları qalanmır. Dədə Qorqud boylarından boy verən bu oyanış tapdaq altındakı yurdlarımızda illərdir ki, gecikir. Çünki orada yağı torpağa qayğı göstərmir, onu əkib-becərmir, əksinə, onu yaralayır.

Tədqiqatçı-alim, professor Dilqəm Quliyevin araşdırmalarına görə, Cəmşid Araz çayı kənarında məskən salıb məclis quraraq dünya hadisələrindən xəbərdar olub. Əl Biruni "Asar əl-Baqiyyə" adlı əsərində bu haqda belə yazır: "Deyirlər, Cəmşid bir sıra şəhərlər gəzib, nəhayət, Azərbaycana gələndə taxta çıxdı və camaat onu çiyinlərində apardı. Günəş şüaları həmin taxta düşdü. Camaat bu şöləni görüb həmin günü bayram etdi. Digər bir mənbədə isə deyilir ki, Cəmşid dünyanı seyr edirdi. Azərbaycana çatdıqda o, həmin gün taxta oturdu, camaat şadlıq etdi. Dedilər ki, bu gün Novruzdur - yeni gündür".

Novruz bayramının Azərbaycanla bağlı olması barədə fikirlər əsrlər boyu davam edərək dövrümüzə qədər gəlib çatıb. Ümumiyyətlə, orta əsr mənbələrinə xas olan belə bir cəhəti qeyd etməliyik ki, həmin dövrlərdə bütün bayramların hökmdarların adı ilə bağlanmasına xeyli səy göstərilib. Bu isə dövrün xüsusiyyətlərindən irəli gəlirdi. Çünki orta əsrlərdə alim və şairlərin, demək olar ki, əksəriyyəti müəyyən hökmdarların tabeliyində və ya himayəsi altında olub.

...Dünyagörmüş şəhid anası Səmayə Mehdiyeva isə deyir ki, Novruz gecələrində sübhə kimi yatmayan təkcə oğlanlar və ya orta yaşlı kişilər deyil, qızlar da olurdu: "...Kənd qızlarının bir evə yığılması və orada mərasimlə bağlı müxtəlif oyunlar keçirmələri oğlanların da marağını çəkərdi. Həmin gecələrdə qız bəyənməyə çıxanlar da az olmazdı. Qızlar şirniyyat bişirər, nənələrindən qalma yadigarları yada salar - bəxtlərini sınayar, qapıpusmaya çıxardılar. Daha bir maraqlı oyun "Yelləncək" idi. Hündür yerlərdən kəndirlə yelləncək asardılar. İkiqat asılmış kəndirin bir tərəfində oğlan, digərinkində isə qız oturardı. Üz-üzə oturmuş bu cütlükləri bəzən yarızarafat-yarıgerçək sevgililər də adlandırardılar. Çünki qızlar yalnız bəyəndikləri oğlanla birlikdə yelləncəyə minərdilər..."

Qonşuların və qohumların, eləcə də küsülülərin bir-birinin evinə ayaq açması milli birliyin göstəricisi sayılırdı. Bayram günlərində küsülülər barışmalı, kimsə qanıqara olmamalıdır, xoş sözlər danışmalıdır. Çünki qapının arxasında "bəxtinə çıxan sözlər"i səbirsizliklə, təlaş və həyəcanla gözləyənlər olur. "Duzlu kömbə" yeyib yatanların yuxularının çin olacağı inamının da tarixi çox qədimlərə gedib çıxır...

Qalanan tonqalların qığılcımları göyləri yandırmasa da, düşmənin bağrını yarır, yarasaların gözlərini qamaşdırır. Dədə Qorqud Oğuz oğluna tapşırıb ki, dağların başında üç tonqal qalasın. Qoy düşmən bilsin ki, Oğuz yurdunun ocağı gur yanır... Bunun rəmzi mənası var. Üç tonqal qələbə rəmzidir! Üç tonqal qalamağa qadir olan xalqımızın Novruz bayramının özəllikləri az deyil. Bu milli bayramın əsrlər və minilliklər yola salması onun digərlərindən fərqli cəhətləridir. Vaxtilə dini don geydirilən və buna görə də sovetlər tərəfindən keçirilməsi yasaq edilən Novruz, əslində, mahiyyətini özü göstərir. O, təbiətin canlanması ilə fəsillərin yerinin dəyişməsini bildirir. Deməк, il təzələnir. Milli-mənəvi sərvətlərimizdən sayılan Novruz bayramı özəllikləri ilə fərqlənir. Bəlkə də türk xalqlarının yeganə bayramıdır ki, bu əziz günlərdə böyüklü-kiçikli hər kəsin qəlbinə bir bahar təravəti, yaz duyğuları - coşqunluq, yüksək əhvali-ruhiyyə dolur.

Qədəmləri uğurlu, bərəkət sovqatlı olsun Novruz bayramının. Hər diləkdən bir mətləb hasil olur, deyirlər. Qoy builki Novruz yurd nisgillilərə, sadəcə, təsəlli deyil, xoş ovqat gətirsin, ümidləri cücərtsin...

Gəl, gəl, a yaz günləri, ilin əziz günləri...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Günay Bank

Azərbaycan xalqını
Novruz bayramı
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır



## Medallar təqdim olunub

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təltif olunmuş Dövlət Agentliyinin əməkdaşlarına medalların təqdimolunma mərasimi keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə agentliyin sədri Ülvi Mehdiyev çıxış edərək Prezident İlham Əliyevin Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinə daim xüsusi diqqət və qayğı göstərdiyini, "ASAN xidmət" işçilərinin peşə bayramı gününü təsis etdiyini vurğulayıb.

Sonra "Dövlət qulluğunda fərqlənməyə görə" və "Tərəqqi" medalı ilə təltif olunmuş əməkdaşlara ali dövlət mükafatları təqdim olunub, onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Qeyd edək ki, Prezident İlham Əliyev ötən il dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb. Müvafiq sərəncama əsasən, "ASAN xidmət" işçilərinin peşə bayramı günü münasibətilə və dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsində səmərəli fəaliyyətinə görə agentliyin 10 əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə", 17 əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olunub.

# Xalq oyunları

## Folklor nümunələri olan meydan tamaşaları min illərdir ki, qorunub saxlanmaqdadır

Novruz bayramı milli adət-ənənələrimizi özündə qoruyub saxlaması ilə də sevilir. Əslində, bu bayram həyat və məişətimizin elə sahəsi yoxdur ki, oradan özündə pay saxlamasın. Xalqımızın zənginliyi həm də onun milli etniklərin adət-ənənələrinə hörmətlə yanaşması ilə ölçülür. Hər bir azsaylı xalqın milli adət-ənənəsinin Novruzda təqdim edilməsi ölkəmizdə multikulturalizmin nümunəsi də hesab edilir.



Bu gün onun qorunub saxlanması dövlətimizin mədəniyyət siyasətinin tərkib hissəsinə çevrilib. Respublikamızda yaşayan bütün azsaylı xalqların folklorunun tərkibini zənginləşdirən "Motal-motal", "Qurd basdı", "Çövkən", "Cızıq turnası", "Gizlənpaç" (gizlən, qaç), "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pulpula", "Zorxana", "Sino", "Mil", "Qəpik-qəpik", "Fincan-fincan", "Bənövşə", "Dirədöymə", "Çalabaşı", "Yelləncək", "Maraloyunu", "Kilimarası" və s. oyunlarda həm uşaqlar, həm də böyüklər həvəslə iştirak edərlər.

Novruz bayramından söhbət açan bəzi müəlliflər "Kosa-kosa", "Kəndirbaz", "Sim pəhləvan", "Masqara", "Gözübağlayıcı", "Cıdır" tamaşaları, qələncə oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq və s. kimi kütləvi əyləncəli milli oyunların bayramla əlaqədar keçirildiyini göstərirlər. Sadaladığımız xalq oyunları zaman-zaman yol keçərək bu günümüzədək gəlib çatıb.

Novruz bayramında həmçinin, güləş yarışları təşkil edilir, meydanlarda yallılar oynanılır, kəndirbazların tamaşaları göstərilir, mahnılar oxunur, aşıqlar deyişirlər...

Bütün bunlar xalqımızın Novruzla bağlı düşüncə və yaddaşlarında yaşayanlardandır. Yadellilər xalqımızın nəinki təbii, onun milli-mənəvi sərvətlərinə də qənim kəsilməyi unutmayıb. Zaman-zaman bu yerlər təbii sərvətinin bolluğuna görə təcavüzkarların, işğalçı və qəsbkarların hücumlarına, talanlarına məruz qalıb. Ötən əsrin 90-cı illərində bu ağrı-acılar yenidən yaşandı. Qarabağın aranlı-dağlı Oğuz ellərinə erməni qəsbkarları, qəddar və amansız vandalları qəfil hücum etdi. O zamanlardan Novruz bayramı gələndə diləklər də dəyişib, arzular da. Təki ümidlər cücərsin, - deyiblər...

Novruz tonqalı illərdir ki, Qarabağdakı dağlarımızın zirvəsində qalanmır. Çünki Dəlidağ, Şuşa qalası, İsa bulağı, Kirs, Qırxqız, Gəlin qayası, Ceyran bulağı, Laçın yaylaqlarında oyanış, dirçəliş yoxdur. Erməni vandalları o yerlərin təkcə təbiətinə deyil, tarixinə, ədəbiyyatına, folkloruna, xalqın adət-ənənəsində yaşayan qədim mərasim oyunlarına da qənim kəsilib.1993-cü ilin mart ayı kəlbəcərlilər üçün bayram kimi deyil, faciə, müsibətli günlərlə yaddaşlarına yazılıb. Onlar hər yeni gələn Novruzdan dilək diləyir ki, növbəti bayramı dağlarda qarşılasınlar. Uzun illər "Maraloyunu" və "Kilimarası" folklor ansamblının ifaçısı olmuş, Birinci və İkinci Beynəlxalq Folklor festivallarının laureatı olmuş Süleyman Süleymanov söyləyir ki, vaxtilə "Bahar bayramı - yaz bayramı" kimi keçirilən respublika miqyaslı tədbirlərin iştirakçısı olub: "İçəri şəhərin Novruz şənliklərində diqqətçəkən konsert proqramlarından biri də "Maraloyunu" və "Kilimarası" folklor oyunlarıdır. Hər il ümumrespublika Novruz şənliyinə qatılan bu folklor ansamblının çıxışları əcnəbi qonaqların da marağını çəkir. Milli teatrın əsasını təşkil edən bu kimi meydan tamaşaları özündə xalqımızın qədim mədəniyyətə və incəsənətə malik olduğunu əks etdirir. Deməк, Novruz bayramı həm də milli-mənəvi dəyərlərimizə xalq məhəbbətinin tərənnümüdür".

"Maraloyunu" ilə "Kilimarası" folklor oyunlarının ifası günümüzədək gəlib çıxması, Kəlbəcərdə dünyaya göz açmış Mehralı babanın adı ilə bağlı olub. Şübhəsiz ki, el ağsaqqalından da öncə bu xalq oyunlarının mahir ifaçıları var imiş. "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən hər iki xalq oyununun nəsil-şəcərə davamçıları olub. Süleyman Süleymanov və qardaşı Şəfaqət Süleymanov, eləcə də onların övladları da bu oyunları sevə-sevə yaşatmaqdadırlar. Bu qədim xalq oyunlarını sonralar Rövşən Vəlioğlu da öz məharət və qabiliyyəti ilə nəinki respublika miqyaslı, həmçinin beynəlxalq və dünya əhəmiyyətli festivallarda nümayiş etdirib, yüksək mükafatlara və diplomlara layiq görülüb. "Maraloyunu"nun əfsanə əsasında yaranması barədə Rövşən Vəlioğlu fikirlərini belə ifadə edir: "Zurnaçılar dəstəsi qara zurnada elə ifa edirlər ki, maral ayaq saxlayıb bu həzin musiqini dinləməkdən doymur. Boylana-boylana qalan maralın hərəkətləri onun oynadığını göstərir. Maral yerə yataraq başını o yan-bu yana əyməklə nazlanır və musiqinin ritmi ilə səsin haradan gəlməsini axtarır. Bu oyunu nümayiş etdirmək üçün maral dərisi geyinmiş oyunçudan məharət tələb olunur. O, dizləri üstə iməkləməli, əlləri ilə maralın baş-boyun hissəsini oynatmalıdır. Bu, o qədər də asan deyil, adamın nəfəsi kəsilir. Çünki nəfəs almaq üçün açıq yer olmur".

"Kilimarası" isə bundan bir qədər fərqli oyundur", - deyə Süleyman Süleymanov fikirlərini bir qədər də ətraflı şərh edir: "Oyun kollektiv şəklində ifa edilir. Bu, zurnaçılar dəstəsinin ifası altında bir aktyorun gəlincik oyununun nümayişidir. İki nəfərin diz üstə oturaraq tutduğu kilimin arxasında aktyorun yerə uzanaraq məzhəkə çıxarmasıdır. Gəlinciklərdən biri kişi, o birisi isə qadındır. Xalq havalarının birinə oynayan gəlinciklər milli rəqsləri məharətlə ifa etməlidirlər ki, bu da kilimin arxasındakı aktyorun ayaq və əl barmaqlarını necə oynatmaq ustalığından asılıdır. Burada milli kolorit əsas götürülür. Bütün bunlar bayramın milliliyinin təsdiqidir. Meydan tamaşalarının yadigarı olan bu xalq oyunları "Kosa-kosa" kimi komediya janrına aid olmasa da, dramatik də deyil. Bu oyunlar milli teatrımızın tarixinin qədimliyini, mədəniyyətinin zənginliyini qoruyub saxlayır".

Kəlbəcərdə Novruz bayramının necə keçirilməsinə gəlincə, ömrünün 80-ci "Novruz"unu dağlarsız keçirən, 50 ilə yaxın rayon rabitə qovşağında "telefonçu qız" kimi tanınmış, bu gün isə naxışlı corab toxuyan nənə Kəklik Əliyeva deyir ki, Novriz bayramına yalnız aşıq və folklorçularımız deyil, hər bir kəlbəcərli hazırlaşırdı. Evlərdə və həyətlərdə aparılan səliqə-sahman, abadlıq insanlarda yüksək əhvali-ruhiyyə yaradırdı. Çərşənbə axşamlarında kəndin orta yaşlı və cavanlarından ibarət dəstələr düzülər, əvvəlcə ötən il yas mərasimi düşmüş həyətlərə gedər, dualar oxuyardılar. Sonra evin yiyəsindən ocağın üstünü boş qoymamaq xahiş olunar, hətta özləri bayram qazanı asardılar. Bu mərasimi başa vurub uşaqlar folklor oyunlarından istifadə edərdilər. Məsələn, onlar "Kosa-kosa" oyunu ilə məzhəkə göstərər, Keçəlin torbasını doldurmaq üçün min bir hoqqa çıxarardılar. "Novruz torbası" tikilərdi. Kosa ilə Keçəl bacadan şal, ya da torba sallayardılar. Fındıqla "Çalayaatma" oyunu nə qədər maraq doğuran idisə, "Dirədöymə" daha çox gənci bir araya toplayardı".

Maraqlıdır ki, Novruz bayramı günlərində bişirilən xörəklərin və şirniyyatın dadı tamamilə özgə cür olur. O günlərin ən əziz və dadlı şirniyyatından biri əyirdək adlanır. Əyirdək digər şirniyyatlardan hazırlanmasına görə fərqlənərdi. Süddə və yağda yoğrulmuş xəmir kiçik-kiçik doğranaraq yun darağının dəmir dişləri ilə bəzək vurulduqdan sonra yağda qızardılardı. Deyirlər ki, əyirdək Novruz şirniyyatlarının ən dadlı-tamlısıdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***








# Birlik bayramı

Təbiətin oyanışı, qaranquşların gəlməsi, bülbüllərin xoş avazı könlümüzün bahar sevgisini daha da artırır. Novruz bəşər övladları arasında hər cür fərqi aradan qaldıran möhtəşəm birlik bayramıdır.

Qədim Qubada keçirilən Novruz şənliklərində də bu birliyə rast gəlmək olur. Qubanın milli mənzərəsi bu fikrin tam təsdiqi ola bilər. Burada yaşayan 160 minə yaxın əhalinin tərkibində azsaylı xalqların, etnik qrupların nümayəndəsi çoxdur. Bu gün Qubada 20 minə yaxın tat və ləzgi, 2 mindən çox məhsəti türkü, 4 mindən çox xınalıqlı, 3 min 500 buduqlu, 2000 qırızlı, 1000 rus, tatar, gürcü, ukraynalı, belarus, 4 mindən çox yəhudi yaşayır. Bu azlıqlar Qubada bir ocaq başına yığışmış mehriban ailəni xatırladır.

Qubanın təbiəti insanda xoş ovqat yaradır. Bir yanda başı qarlı dağlar, göylərin yerlərə ərməğanı olan buludlar, bir tərəfdə də insanı valeh edən yer inciləri - bənövşə, nərgiz, yasəmən və digər çiçəklərin yaşıl boğçası. Canlıların şahı olan insan bu gözəlliyə bir rəng qatır. Öz adətinin, mətbəxinin, inanc və simasının bir nemətini - naxışını vurur. Qubalılar deyirlər ki, Novruz özünü yetirincə imkan tapıb yeddi dəfə çölün-düzün, bağın-bostanın yaşıl nemətinin göy qutabını yemədinsə... onda yazın başlamağının nə faydası. Yəni demək sənin bahardan xəbərin yoxdur. Səməni umacı, halvası çalıb, qapı-qonşuya, qohuma-yada paylamadınsa, bu nə Novruz qarşılamaq oldu?

Axır çərşənbədə sübhün gözü açılmamış qara sapla ağ sapın fərqi bilinənəcən insanlar çay kənarına gedər, axar su üstündən keçər, yuyunarlar. Evdəki bütün qab-qacağı çərşənbə suyu ilə doldurarlar. Həmin sudan çənlərə doldurar, sonra onu əkin vaxtı bağa-bostana çiləyərlər ki, il, məhsul bol ruzili olsun. Bərəkətin, ruzinin bolluğunu arzulayıb bir ağızdan nəğmə oxuyarlar.

Sonra evə qayıdar, kişilər ailə üzvlərinin adına heyva budağı kəsər, qırmızı parçadan kəsib ağaca, dirəyə bənd edərlər ki, qara yazı çöhrələrinə qonmasın (həm də sədaqət, etibar ailədən əksilməsin).

Bayram axşamı az qala hər məhəllədə çalıb-oynayan cavanlar, xoruz döyüşdürən uşaqlar, çim pəhləvanı, Keçəl-Kosa cütlüyü də adamların ovqatına bir ayrı cür rəng qatarlar. Nügədi kəndində cavanlar yaxındakı Bəhyə dağına qalxar, əvvəlcədən hazırladıqları iri bayram şamlarını ən yüksəkdə yandırmaqda bəhsə girərlər. Axşama doğru şölələn ocaqlar sanki işıqlı günlərə çağırış kimi səslənər. Hələ musiqi səslərini demirəm; Keçəlin bəzənməsi, Kosanın deyimləri, bayatılar, el mahnıları səmalara yayıldıqca üzlərdə sevgidə çoxalar, məhəbbət də artar.

Quba mətbəxinin ən ləziz yeməkləri, ən lətif şirniyyatı, qax-qoz, löyün-löyün çərəzlə dolu xonçalar düzülər süfrəyə... Axır çərşənbədə, Novruz axşamında papaqatdıya çıxacaq uşaqların payının tədarükü əvvəldən yerbəyer edilər. Qubanın adla deyilən paxlavası, bükməsi də öz yerində. Nügədi kəndində bişirilən paxlavanı gərək yeyəsən ki, ləzzətini biləsən! El arasında buna pitik paxlava, üçkünc paxlava da deyirlər. Gültəpə kəndində ocaq qalayar, hava işıqlanadək onun ətrafında oturub söhbət edərlər.

Buduqda bayram axşamında qovurmalı, yaxud cücəplovdan başqa (baxır zövqə), mütləq əriştəli plov da bişirərlər. Adətdir ki, bu xörək elə gecəykən paylana. Düşünürlər ki, həm ruzidir, həm də, qoy, hər kəsin evində bərəkət olsun. Buduqlular Novruzda şorqoğalı bişirmirlər, süfrəyə yalnız şirin nemətlər düzürlər.

Xınalıqda adətlər bir qədər fərqlidir. Axır çərşənbədə oğlan evindən nişanlı qız evinə yeddi pay göndərərlər. Buna Xınalıq dilində "yig tikə" deyirlər. Sevgi, sağlamlıq, ruzi, bərəkət, mehribanlıq, sədaqət və övlad rəmzlərini xatırladan bu yeddilik gələcək ailəyə dilənən arzulardır. Oğlan evinin adamları öz payları ilə qız evinə gedər, gecə yarıdan keçənədək bir yerdə deyib-gülər, ocaq çatıb ətrafında əyləşərlər. Ətraf kəndlərdən çatılan ocaqların işığı isə ulduzu xatırladar.



Qırmızı qəsəbədə yaşayan yəhudilər də Novruz bayramını eyni coşqu ilə qarşılayarlar. Bayram günü əhalinin böyük hissəsi eşiyə çıxar, bir-birinin yeni gününü təbrik edərlər. Axşam alovlanan tonqallar bu yaraşıqlı qəsəbəni nura bürüyər. Tonqal başına yığışan adamlara şəkərbura, paxlava, qoğal paylanar. Bu tonqalın başında etiqadından asılı olmayaraq hamı yanaşı dayanar. Şənlik tədbirləri gecə yarıdan keçənədək davam edir.

Qubada Novruz şənliklərinin sonunda, bayramın 13-cü günündə səməniatma mərasimi də keçirilir. Bu adətin, deyilənə görə, təqribən yarım minillik yaşı var. Həmin gün əllərində səməni olan insanlar Qudyalçayın sahilinə gəlir, səmənini axar suya buraxır və niyyət edirlər. Niyyət edirlər ki, gələn Novruzadək arzusu çin olsun, gəlsin burada şirni paylasın.

Bayramda qocaların, kimsəsizlərin qapısını açmaq, könlünü xoş etmək, əzizlərinin ruhlarını yad etmək təkcə adət yox, həm də düşüncə tərzidir. Həmin gün hərə öz bişintisindən, asdığı qazandan qonşuya pay çəkərlər. Evin balacaları onları nəzərdə tutulan ünvanlara çatdırar. Bax bundan sonra özləri yeməyə oturarlar.

Qubada bir də, ortası qırmızı lentlə bağlanmış qara daşlar - şəhid məzarları mütləq ziyarət olunur. Əhali yığışıb şəhid qəbirlərini ziyarət edər, onların ailə üzvlərini hərə öz evinə dəvət edər. Çünki sevinc bölüşəndə çoxalar, qəm isə azalar deyiblər.

Qusar rayonunda da bu bayramın öz xüsusi ənənələri, əsrlərdən qoşalaşıb gələn adətləri var. Novruz günləri insanlar arasında hər cür fərqi - sosial, dini, irqi, etnik fərqləri aradan qaldıran birlik günüdür.

Şimal qapımız olan Qusarda bayrama boz ay başlayandan hazırlıq görülür. Böyüklü - kiçikli odun yığmağa başlayırlar. İki-üç evin adamları odunu bir yerə yığar, sonra onu hamının müəyyənləşdirdiyi bir aləmin həyətinə daşıyarlar. Hər məhəllədə yığdıqları odunları bir nəfərə tapşırdıqdan sonra öz aralarında Keçəli, Kosanı müəyyənləşdirirlər. Novruza ləzgi dilində "Yaransuvar" (Yeni gün) deyirlər.

Hələ fevralın əvvəllərində - çərşənbə axşamlarından qabaq mis qaba su töküb saxlayırlar. Həmin qabın ağzını örtməzlər. İnanca görə ilin ruzi-bərəkəti ora topalanar. Çərşənbə günlərində həmin su dolu qabı 7 evə aparırlar. Hər bir kəs o sudan istədiyi qədər içə bilər. İnanca görə əgər su 7 nəfərə çatarsa, arzularının qərarlaşacağına inanırlar. Həmin 7 nəfər bir yerə yığılar, bir-birini təbrik edər, deyib, gülər, şənlənərlər.

Bayram axşamı tonqallar qalanar, millətindən asılı olmayaraq, hamı ocaq başına yığışar. Məşhur ləzginkanın sədaları altında rəqs edər, bolluca lətifə danışarlar. Bayramda hər evdə mütləq plov bişirirlər. Həmin plovu qonşuluqda olanlarla paylaşarlar. Öncə kimsəsizlər, ailə başçısını itirənlər, övladı əsgərlikdə olanlar yad edilər. Onları təbrik etdikdən sonra hamı qalanan tonqalın başına yığışar, mahnı oxuyar, rəqs edərlər.

Qusarda icra edilən adətlərdən biri də Novruz axşamı yeni evə daxil olmaq, elçilik etmək kimi ənənələr diqqəti cəlb edir. Kimin elçiliyi qəbul edilsə, demək, tezliklə toy olacaq. Hətta elə tonqal başında toyun gününü də müəyyənləşdirərlər. Bayram axşamı doğulan uşaqlara Novruz və Bahar ismini verərlər.

Qusarlıların evləri həmin günlərdə qonaqlı-qaralı olar. Hətta işləmək üçün müxtəlif şəhərlərə gedən qusarlılar geri qayıdar, Novruzu evlərində keçirərlər. Öz aralarında belə deyərlər ki, evdə olaq, ruzumuz dalımızca gəlsin. Bu da bir toy-bayrama çevrilir. Qohumlar bir yerə yığışar və Novruz gecəsini birlikdə keçirərlər.

Həmin günü xoş keçirməklə insanlar sanki bütün dərd-sərlərinə qalib gəlirlər. Küsülü olanlar həmin günü barışır, bir-birilərindən üzr istəyirlər.

Bəli, bu Azərbaycanda milli azlıqların bir ocaq başına yığışaraq mehriban ailə kimi yaşamalarının bir təsdiqidir. İllərin sınağından keçib gələn halallıq, ləyaqət, qürurluq nümunəsi olan ocağımız isə hələ çox alovlanacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

xalqımızı
Novruz bayramı
münasibətilə təbrik edir,
xoşbəxtlik, ailə səadəti, firavan həyat
və işıqlı gələcək arzulayır



HƏYATINIZ DAİM İŞIQLI OLSUN!

AAY
DÖVLƏT AGENTLİYİ

Azərbaycan xalqını
NOVRUZ bayramı
münasibətilə təbrik edir,
əmin-amanlıq və xoşbəxtlik arzulayır



Yolunuz uğurlu olsun!

Halal Nemət 1000 Bərəkət

xalqımızı
Novruz bayramı
münasibətilə təbrik edir.
Qoy bu bayram ölkəmizə xeyir-bərəkət,
ruzi və xoş günlər gətirsin!



# Gülənbər nənənin 104-cü baharı

Əliabad kəndinin qocaman sakini Gülənbər Mirmehdi qızının Novruz bayramını təbrik etməyə gedəndə həyət qapısında bizi oğlu Həmdulla qarşılayıb evin ikinci mərtəbəsinə dəvət etdi.



Səliqə ilə divar boyu düzülən səmənilər, gül dibçəkləri göz oxşayırdı. Gülənbər nənə bizi ayaq üstə qarşıladı. Salamlaşıb hal-əhval tutandan bir qədər sonra yaşadığı ömür yolundan qısa söz açdı. Dedi ki, 1915-ci ildə Lerikin Cəmaşair kəndində dünyaya göz açıb. Fayaz Cahangir oğlu ilə ailə həyatı qurandan sonra Əliabad kəndinə köçüb. Fayaz kolxozda mühasib işləyib, Gülənbər qız-gəlinlərə qoşulub payızda əkinçi, yayda biçinçi olub.

Həyat yoldaşı dünyadan tez köçüb. Bir oğlunu, iki qızını təkbaşına ərsəyə çatdırıb. Heç kəsə əl açmayıb, kimsənin payına şərik çıxmayıb. Övladlarına əllərinin qabarı, alnının təri ilə qazandığı halal çörək yedizdirib. Oğlunu evləndirib, qızlarını gəlin köçürüb.

Söhbətin bu yerində Gülənbərin kiçik qızı Mətanət xanım samovarı otağa gətirdi. Süfrəyə şəkərbura, paxlava, qoğal, səməni halvası qoyuldu, rənglənmiş yumurtalarla dolu nimçələr düzüldü. Söz sözü çəkdi, söhbət çərşənbələrdən, Novruz bayramından düşdü. Gülənbər nənə ötən illəri yada salıb dedi:

- Novruz əmin-amanlıq bayramıdır. Bayram gələndə kəndimizin oğlanları atları yəhərləyib çapardılar, qurşaq tutub güləşərdilər. Meydanda "Ənzəli", "Çilədi", "Qayışgötürdü" oynayardılar. Elə ki toran düşdü, əl-ələ verib "Yallı" gedərdilər. Qızların da öz oyunları var idi. Bir həyətə yığışıb ağacdan ip asıb növbə ilə yellənərdilər. Bayram günü səhərin gözü açılar-açılmaz üz tutardılar bulağa. Bardaqları, səhəngləri doldurardılar. Subay oğlanlar gözaltı seçməyə çıxardılar. Kəndimizdə gözəl Novruz adətləri var. Onlardan biri nişanlı qızlara bayram payı aparmaqdır. Bayram payında süddə yoğrulmuş külçə, əyirdək, səməni halvası, çərəzlər, qovrulmuş noxud, ağzına dəmir pul qoyulmuş balıq mütləq olmalıdır.

Ağbirçək sovet hökumətinin bayramı yasaq etməsindən də danışdı. Dedi ki, buna baxmayaraq o illərdə də bayramı şadyanalıqla keçirərdik. Qohumlara, qonum-qonşuya gözaydınlığı verməyə gedərdik, xonçalara əl uzadıb bayram təamlarından dadardıq. Ağbirçək Novruzu xalqımıza qaytaran ulu öndər Heydər Əliyevə ulu Tanrıdan ucadan rəhmət dilədi.

Gülənbər böyük bir ailənin sələfidir. 12 nəvənin, 25 nəticənin, 1 kötükcənin nənəsidir. Kötükcəsi Məmmədhüseynin 1 yaşı tamam olur. Xoşbəxt qocalığından çox razıdır. Dövlətdən pensiya alır. Bayramlarda, ad günündə yerli təşkilatın nümayəndələri ağbirçəyə baş çəkirlər. Nəvələrinin, nəticələrinin xoş sorağını eşidəndə ürəyi dağa dönür. İşsiz durmağa səbri çatmır. Toyuq-cücə saxlayır, ağaclara qulluq edir.

Xudahafizləşəndə arzularını soruşduq. "Allah bu xoş güzəranı əlimizdən almasın, Qarabağın işğaldan azad olunmasını gözləyirəm, o gün qurban kəsdirəcəyəm", - dedi.

Biz də "müqəddəs arzudur, mütləq çin olacaq", - dedik.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Sərhəd kəndlərinin sakinləri Novruzu böyük bayram sevinci ilə qarşılayırlar

Elimizə-obamıza yaz gəlir. Təbiətin nazlı gəlini bahar yenə də bağlara yeni təravət, insanlara sevinc gətirir. Ana torpaq qış yuxusundan oyanır, kol dibindən boylanan bənövşələr göz oxşayır, yazın ilıq nəfəsindən həvəsə gələn quşlar yorulmaq bilmədən bu budaqdan o budağa qonurlar.





Bir sözlə, əsrlərin sınağından çıxmış, mənəvi dəyərləri, adət-ənənələri özündə yaşadan Novruz öz gəlişi ilə yeni bir həyatın başlanğıcından xəbər verir.

Novruz təkcə baharın gəlişinin bayram edilməsi deyil, eyni zamanda yeni təqvim ilinin - yeni günün başlanğıcı hesab edilir. Odur ki, ta qədimdən Novruzu təbiətin canlanmasının, torpağın oyanmasının, bir sözlə, ruhun təzələnməsinin simvolu hesab edirlər. Xüsusilə bahar yurdumuza qədəm qoyanadək, insanlar öz inanclarına sadiq qalaraq Su, Od, Yel və Torpaq çərşənbələrini əsl bayram kimi qeyd edirlər.

Belə bir əziz gündə qərara gəldik ki, elimizin müqəddəs bayramı olan Novruzun sərhəd kəndlərində necə qeyd edilməsinin şahidi olaq. Bu məqsədlə Tovuz rayonuna yollandıq. İstəyimizi bildirəndə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov dedi ki, hansı kəndə istəyirsiniz, gedin. Hamısında insanların böyük ruh yüksəkliyinin şahidi olacaqsınız. Erməni mövqeləri ilə qarşı-qarşıya dayanan sakinlər heç bir qorxu hissi keçirmirlər. Bütün evlərdə bayram əhvali-ruhiyyəsi var. İnsanlar bu əziz bayram günlərində kifayət qədər nikbindirlər. Onlar gündən-günə mətinləşən Azərbaycan Ordusuna güvənməklə gündəlik həyat və məişət qayğıları ilə yaşayırlar. Bu inamın bir mənbəyi də dövlət başçısının sərhəd kəndlərinin sakinlərinə göstərdiyi diqqət və qayğıdır.

Tovuzun Ermənistanla həmsərhəd olan kəndlərindən biri Hacallıdır. 2 minə yaxın əhalisi, 350 təsərrüfatı var. Dağlıq Qarabağ müharibəsi başlayandan 8 şəhid verib. Kənd camaatı o qədər qoçaqdır ki, ermənilər kəndə dəfələrlə hücum etsələr də, kəndi iri çaplı güllələrlə atəşə tutsalar da, kişiləri sinələrini qabağa verib, öz doğma yurdlarını qoruyublar. Döyüşlərdə kənddəki evlərin təxminən 80 faizi dağıdılmışdı. Ancaq sabitlik yarananda dövlət vəsaiti ilə evlərin bir hissəsi yenidən tikildi, qalanı bərpa olundu.

Respublikamızın digər sərhəd kəndləri kimi Hacallı kəndinə də asfalt yol çəkilib. Bizə bələdçilik edən rayon icra hakimiyyəti başçısının Hacallı kəndi üzrə nümayəndəsi Sahib Quliyev söhbət zamanı dedi ki, dövlət başçısının diqqət və qayğısı ilə kənd sakinlərinin bütün problemləri həll edilib. Kəndə təbii qaz çəkilib. Elektrik enerjisinin davamlılığının təminatı üçün yenidənqurma işləri aparılıb. Yeni məktəb və poçt binaları tikilib istifadəyə verilib. Kənddə kitabxana, polis məntəqəsi var. Bir sözlə, əhalinin təhlükəsizliyi və rahatlığı üçün bütün infrastruktur yaradılıb. Rayon mərkəzi ilə Hacallı kəndi arasında marşrut avtobus xətti açılıb.

Hacallı Ermənistanın bir kəndi ilə çox yaxın məsafədə qarşı-qarşıyadır. Kəndlər bir-birinə o qədər yaxındır ki, hətta azərbaycanlılar ermənilərin hərəkətlərini aydın müşahidə edirlər.

Dilican Ələsgərov sayılıb-seçilən kənd ağsaqqallarındandır. Həyətdə oturub istirahət etdiyini görüb onunla salamlaşdıq və bayramını təbrik etdik. 80 yaşını haqlamış ağsaqqal bizi evə bayram süfrəsinə dəvət etdi. Sağlığına qismət olsun. Çox yaraşıqlı evi var. Söhbət zamanı dedi ki, evi düşmənlə çox yaxın məsafədə yerləşir. Lakin buna baxmayaraq son illər onu bir qədər də genişləndirib, əlavə bir neçə otaq da tikdirib.

Dilican kişinin 4 oğlu, 4 qızı var. Qızlarını köçürüb. Oğlanları da ailəlidir. Hazırda oğlu Daşqının ailəsi ilə birlikdə qalır. O da 1990-cı illərdə doğma kəndinin müdafiəsi üçün vuruşub. Hətta döyüşlərin birində ayağından yaralanıb.

Kənd sakini Füzuli Əhmədovun da evində olduq. Mənzilə daxil olanda nəzərimizi Novruz xonçası cəlb etdi. Çay süfrəsi arxasında səmimi söhbət etdik. Dedi ki, 1990-cı illərdə Ağdərə döyüşlərində iştirak edib. Qolundan yaralandığı üçün bir müddət müalicə alıb. Sonra yenidən hərbi hissəyə qayıdaraq 1997-ci ilə kimi xidmətini davam etdirib.

Füzulinin oğlu Ülfət Əhmədov aprel döyüşlərinin iştirakçısıdır. Goranboyun Tapqaraqoyunlu kəndində düşmənin təxribatının qarşısını alarkən qarın nahiyəsindən yaralanıb. 8 ay hərbi hospitalda müalicə olunub. Sonra II qrup əlil kimi hərbi xidmətdən tərxis olunub.

Ümumiyyətlə, Hacallıda hara üz tutduqsa, bizi böyük səmimiyyətlə, mehribanlıqla qarşıladılar. Kimi danışdırdıqsa, ölkə rəhbərinə minnətdarlıq etdi. Dedilər ki, kənddə tam sakitlikdir. Heç bir problem yaşanmır. Sakinlər Azərbaycan Ordusuna güvənərək rahat nəfəs alır, əziz bayramlarını yüksək səviyyədə qeyd edirlər. Hamı bayram əhvali-ruhiyyəsindədir. İlaxır çərşənbələrini təmtəraqla keçiriblər.

Həyətlərin birində yandırılan tonqalı seyr etdik. Uşaqdan böyüyədək hamının üzündə böyük sevinc var idi. Kənd cavanları tonqalın üstündən hoppanır, şadyanalıq edir, bayram sevincini yaşayırdılar. Kənd icra nümayəndəsi yaxınlıqdakı böyük təpəni göstərib dedi ki, uşaqlar qaranlıq düşəndə həmin yüksəklikdə də nəhəng tonqal qalayacaqlar. Əsl bayram sevinci onda yaşanacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







# Axıska türklərinin bayram ovqatı

Müqəddəs Novruz bayramı Orta Asiya ölkələrində, Çin səddindən Afrikaya, Hindistandan Əfqanıstana, Yakutiyadan Çuvaşıstana, Tatarıstana, Moldovaya, Macarıstan və Balkanlara qədər, bir sözlə, dünyanın harasında, hansı şəhərində, hansı kəndində yaşamasından asılı olmayaraq bütün türk ailələrində sevilərək qeyd olunur.

Türk milli mədəniyyəti və məişətindən qaynaqlanan Novruz bayramı xalqımızın adət və ənənələri ilə zənginləşən, minilliklərin tarixinə söykənən milli bayramdır. Bu bayram Azərbaycan xalqının zəngin maddi və mənəvi irsinin mühüm bir hissəsini özündə ehtiva edir. Novruzun tərkibi quruluşca mürəkkəb, məzmunca dərin və genişdir. Folklorşünas tədqiqatçıların söyləmələrinə görə, bu bayramın uzunömürlüyü qədim mədəni köklərə və milli ənənəvi qaynaqlara bağlılığındadır. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunur. Bu bayramı ölkəmizdə yaşayan azsaylı xalqlar da təntənə ilə qeyd edirlər. Hələ uşaq yaşlarımda Şəmkir rayonunun Bitdili kəndinə köçürülmüş Axıska türklərinin timsalında da bunun canlı şahidi olmuşam. Stalinin əmri ilə 1944-cü il noyabr ayının 14-də öz tarixi torpaqlarından yük vaqonlarına doldurularaq Orta Asiyaya sürgün edilən Axıska türkləri, 1959-cu ildən etibarən Azərbaycana və digər sovet respublikalarına köç etmişlər. O vaxtlardan onların böyük bir qismi Şəmkir rayonun Aşağı Bitdili kəndinin yaxınlığında kompakt şəkildə məskunlaşıb. Özbəkistanın Fərqanə bölgəsində axıskalı türklərə qarşı həyata keçirilən basqı və dəhşətli hadisələrdən sonra 1989-cu ildə Axıska türkləri ikinci dəfə yaşadıqları yerdən sürgünə məruz qaldılar. O zaman Azərbaycana, o cümlədən Şəmkirə, lap elə Bitdili kəndinə gələnləri də az olmayıb. Hamımızın yaxşı tanıdığımız, 1993-cü il aprelin 18-də respublikamızın ərazi bütövlüyü uğrunda Gədəbəy rayonunun "Örükdaş" istiqamətində erməni quldurlarına qarşı gedən amansız döyüşlərdə igidliklə şəhid olan Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun mənsub olduğu ailə də elə bu sıradandır.

Şəmkirdə yaşayan axıskalı türklərin qeyd etdikləri ən əsas bayramlar Qurban və Ramazan bayramı olsa da, Novruz bayramını da qapı-qonşu azərbaycanlılarla birlikdə yüksək səviyyədə qeyd edirlər. Azərbaycanda yaşayan digər toplumlar kimi, Axıska türkləri də Novruz çərşənbələrinə və bayrama təmtəraqlı tədarük hazırlıqları ilə başlayırlar. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, bayram tədarükü, bayram şirniyyatlarının hazırlanması və s. daxildir. Təmizlənməmiş həyət-baca qalmır, bayram öncəsi hamı, xüsusən də uşaqlar təzə paltar geyinir, küsülülər barışır, nişanlı qız və oğlan evinin hazırlıqları isə başqa təntənədə olur. Bir sözlə, azərbaycanlılarla bir yerdə yaşayan axıskalıların əhvali-ruhiyyəsi və bayram ovqatı ətrafdakılardan seçilmir, sosial harmoniya məmnunluq yaradır.

Azərbaycanlılarda olduğu kimi, axıskalılar arasında da yumurta döyüşdürülməsi qışla yazın, soyuqla istinin mübarizəsini nümayiş etdirməkdir. "Toxum cücərtmək" və ya "Səməni qoymaq" da bu şəkildə təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. "Qulaq falı" və ya "qapı pusmaq" yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Burada Novruza aid olan bayram adətlərindən biri də torba atmaqdır. Axıskalılar arasında bu günün "torba atmaq" mədəniyyətində "dəsmal atmaq" və "papaq atmaq" kimi yeni vasitələrdən istifadə edildiyi də müşahidə olunmaqdadır. Novruzun papaq atmaq kimi dillər əzbəri olan bu adətini yerinə yetirən uşaqlar yetərincə əylənirlər. Ənənəyə görə torbanı boş qaytarmaq olmaz.

Novruz bayramı Şəmkirdə - Axıska türklərinin toplum halında yaşadıqları Bitdili kəndində olduğu kimi, Saatlı, Sabirabad, Quba, Xaçmaz, Şabran, Beyləqan rayonlarında da yaşayan axıskalılar arasında geniş qeyd olunur. Bu şənliklər zamanı müxtəlif yarışlar keçirilir, Novruza aid şeirlər söylənilir, davul və zurnada şən musiqilər səsləndirilir, müxtəlif kompozisiyalarda səhnəciklər təqdim edilir. "Özbək, tatar, qırğız: bunlar bir soydur" mahnısı şənliyin ən yaddaqalan və insanları coşduran məqamlarından birinə çevrilir. Qaşıqda yumurta daşıma, kisə (çuval) geyinərək qaçma, habelə bir-birini dalına alıb aparmaq kimi yarışlar və məclisə ağ geyimli, al çiçəkli Bahar qızının gəlişi Axıska türklərinin iştirakı ilə təşkil edilən bayram şənliklərinin ən gözəl çalarlarındandır.

Novruz mədəniyyətlərin, ölkəmizdə yaşayan azsaylı xalqların ortaq bir bayramıdır. Bu ortaq bayram dünyanın bu narahat vaxtında insanları barışığa, mehriban olmağa, həmrəyliyə, həyatı və insanları sevməyə ruhlandırır. Bu ortaq bayram insanları birliyə, əkib-biçməyə, işləməyə, ən nəhayət, ölkəmizdə bolluq yaratmağa səsləyir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Təşəbbüsçü yenə Azərbaycandır

## Bakıda "OPEC plus" əməkdaşlığı çərçivəsində növbəti görüş keçirilib



Neft bazarında balansı qorumaq və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan "OPEC plus" əməkdaşlığı sahəsində fəal rolunu davam etdirir. Ölkəmizin həmin formatda keçirilən tədbirlərə evsahibliyi etməsi bunun parlaq sübutudur. Bu il martın 18-də Bakıda növbəti tədbir - OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclası keçirilib.

"OPEC plus" formatının yaradılması təşəbbüsü ilə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib.

"OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər". Azərbaycanın dövlət başçısı bu təşəbbüsü hələ 2016-cı ilin əvvəlində Davos Forumunda irəli sürüb. Prezident İlham Əliyev, həmçinin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsini təklif edib.

Bu təkliflərin məmnuniyyətlə qəbul edilməsi Azərbaycan Prezidentinə bəslənən böyük hörmətin, o cümlədən dövlətimizin enerji siyasətinə verilən yüksək qiymətin təzahürüdür.

"OPEC plus" formatı çərçivəsində tədbirlərin Bakıda keçirilməsi böyük məna daşıyır. Azərbaycan neftin vətənidir və müstəqilliyini bərpa edəndən sonra bunu bir daha təsdiqləyən qlobal neft-qaz layihələrinə imza atıb. Hazırda ölkəmizin təşəbbüsü və liderliyi ilə həyata keçirilən layihələr dünyanın ən iri layihələri sırasındadır. Azərbaycan mükəmməl beynəlxalq tərəfdaşlıq və əməkdaşlıq formatı yaradıb ki, bu da ölkəmizin dünyadakı nüfuzunu daha da artırır.

JMMC-nin 13-cü iclasının iştirakçıları da tədbirin məhz Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Həm qədim neft ölkəsi, həm də "OPEC plus" formatında əməkdaşlığın fəal iştirakçısı olduğu üçün Azərbaycanın bu tədbirlərə evsahibliyi etməsinin yerinə düşdüyünü bildiriblər.

Tədbirdə Azərbaycanın energetika naziri Pərviz Şahbazov "OPEC plus" formatı yaradılandan bəri ölkəmizin öz öhdəliklərini müvəffəqiyyətlə və tam yerinə yetirdiyini bəyan edib.

Energetika Nazirliyi tərəfindən, eləcə də bu ilin fevral ayında neft hasilatı ilə bağlı məlumatlar OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına (JTC) təqdim olunub. Belə ki, keçən ay ölkədə gündəlik neft hasilatı 806 min barel təşkil edib. Bunun 722 min bareli xam neft, 84 min bareli kondensatdan ibarət olub. Gündə 572,9 min barel xam neft, 84 min barel kondensat, 18 min barel neft məhsulları ixrac edilib. Ötən il isə gündəlik neft hasilatı 792,6 min barel olub.

Qeyd edək ki, JTC-nin 27-ci iclası bu il martın 17-də Bakıda keçirilib. Bu səbəbdən də JMMC-nin toplantısında OPEC-in bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı ilə yanaşı, JTC-nin fevral ayı üzrə hasilat göstəricilərindən bəhs edən hesabatının və qlobal neft bazarında son inkişafların müzakirə olunması da təsadüfi deyil.

JMMC-nin iclasının yekununda mətbuat konfransı da keçirilib. Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih bildirib ki, OPEC-ə üzv və kartelə daxil olmayan bəzi ölkələrlə əldə edilən neft hasilatının azalmasına dair sazişin şərtlərinin icrası fevral ayında 90 faiz səviyyəsinə çatıb. Həmçinin JMMC-nin neft bazarında beş verən proseslərdən razı olduğu qeyd edilib. Nəzərə çatdırılıb ki, dörd ölkə - İraq, Qazaxıstan, Nigeriya və Birləşmiş Ərəb Əmirlikləri komitənin üzvləri sırasına daxil olublar.

Xatırladaq ki, keçən il dekabrın 7-də Vyanada keçirilən görüşdə OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirləri neft hasilatının gündəlik həcminin 1,2 milyon barel azaldılması barədə razılığa gəlmişlər. Yeni qərara əsasən, bu ilin əvvəlindən Azərbaycan sutkalıq hasilatın 20 min barel azaldılması haqqında öhdəlik götürüb.

JMMC və JTC-nin növbəti iclasları isə bu ilin may ayında Ciddədə keçiriləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***






"AtaBank" ASC
Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir,
xoşbəxtlik və sevinc dolu günlər arzulayır

AZPETROL

"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını

Novruz bayramı

münasibətilə təbrik edir, xalqımıza bahar təravətli xoş gələcək, ruzi-bərəkət, sülh, əmin-amanlıq, xoşbəxtlik, birlik, sağlam və firavan həyat arzulayır.




*Təkrar*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 3 LOT üzrə dəftərxana ləvazimatlarının (LOT 1), təsərrüfat mallarının (LOT 2) və işlək materialların (LOT 3) satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

### açıq tender elan edir

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;
- maliyyə durumu qənaətbəxş olmalı;
- texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;
- vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər 200 (iki yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan əldə edə bilərlər:

Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi

Əlaqələndirici şəxs: Azad Musayev, tel: 493-88-67 (daxili nömrə: 22-82)

**Bank rekvizitləri:** Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22

Alan: İqtisadiyyat Nazirliyi
VÖEN:1700012751
Hesab №: AZ82CTRE00000000000002098501

**Ödənişin təyinatı mütləq göstərilməlidir!**

Təyinatı: Tenderdə iştirak haqqı
İqtisadiyyat Nazirliyi
XHK 2098501
Büdcə səviyyəsinin kodu: 7
İqtisadi təsnifat: 142340

**Ünvan:** AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84. Hökumət Evi.
Telefon: 493-88-67

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi həcmində təklifin təminatı;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*

İddiaçı tenderin əsas şərtlər toplusunda göstərilən bütün maddələrə dəqiq əməl etməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 aprel 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 aprel 2019-cu il saat 17:00-a qədər İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 1 may 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender təklifinin güvvədə olma müddəti tender prosedurunun başlandığı gündən etibarən ən azı 30 (otuz) bank günü təşkil etməlidir.

Tender təklifinin təminatı tender prosedurunun başlandığı gündən etibarən ən azı 60 (altmış) bank günü (tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü) çox olmalıdır və təklifin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nazirliyin Aparatının inzibati binasının qarşısında avtomobillərin giriş və çıxışının tənzimlənməsi üçün şlaqbaumun kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 1 aprel 2019-cu il saat 12:00 tarixədək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

# Naxçıvanda Novruz yarmarkası açılıb

Naxçıvan şəhərindəki Mərkəzi bazarda Novruz bayramı münasibətilə yarmarka təşkil olunub.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, yarmarkaya muxtar respublikada fəaliyyət göstərən 32 istehsal müəssisəsi tərəfindən 117 adda 195 çeşiddə məhsul çıxarılıb. Eyni zamanda, 262 ailə təsərrüfatı subyekti tərəfindən 168 adda məhsulun satışı təşkil olunub.

Yarmarkada həmsöhbət olduğumuz Naxçıvan şəhər sakini Pərvanə Quliyeva deyib: "Bayram üçün almaq istədiyim məhsulların hamısına burada rast gəlmək olar. Qiymətlər də münasibdir. Sevindirici haldır ki, belə keyfiyyətli məhsulların hamısı yerli istehsaldır. Builki Novruz bayramında da süfrələrimizi öz məhsullarımız bəzəyəcək".



Digər həmsöhbətimiz, Şərur rayonunun Cəlilkənd sakini, 27 yaşlı ailə təsərrüfatçısı Sənan Qasımzadə yarmarkaya mürəbbələr, turşular, müxtəlif çeşiddə məhsullar çıxarıb. O, gətirdiyi məhsullara alıcılar tərəfindən böyük maraq göstərildiyini deyir.

Bir-birindən ləziz görünən, səliqə ilə qablaşdırılmış şirniyyatları piştaxta üzərinə düzən Sədərək rayon sakini, 19 yaşlı gənc təsərrüfatçı Jalə Abbasova bildirib ki, bayram yarmarkasının təşkili həm biz torpaq mülkiyyətçilərinə, həm də alıcılara əlverişli şərait yaradır. Belə şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm. Alıcılardan biri, şəhər sakini, təqaüdçü-müəllim Zahirə Cəfərova dedi ki, ötən illə müqayisədə qiymətlərdə artım yoxdur. Bazarda təklifi artırmaqla və tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olunub. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun formalaşıb.

Qeyd edək ki, şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda Novruz bayramı münasibətilə keçirilən bayram yarmarkası mart ayının 24-dək davam edəcək.

*Təkrar*

## Azərbaycan Turizm və Menecment Universiteti konfransların keçirilməsinin satın alınması üçün

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1.** "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" adlı beynəlxalq elmi-praktik konfransın keçirilməsi

**LOT -2.** "İdarəetmədə multikultural dəyərlər" mövzusunda 4-cü respublika elmi konfransının keçirilməsi

Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə (Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23) təqdim etsinlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ixtisas göstəricilərinə dair sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

İştirak haqqı LOT-lar üzrə aşağıdakı məbləğdə təşkil edir:

**LOT -1. 70 manat.**

**LOT -2. 70 manat.**

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçılar iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidirlər:

**VÖEN: 1500817681**
**Hesab: AZ27İBAZ40090019445931153206**
**Bankın adı: ABB ASC Nərimanov filialı**
**VÖEN: 9900001881**
**Kod: 805540**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.: İBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 aprel 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 aprel 2019-cu il saat 17:00-a** qədər Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23 ünvanında yerləşən Azərbaycan Turizm və Menecment Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təklifi zərfləri **23 aprel 2019-cu il saat 10:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072

Tel: (+994) 55 203 -25- 33.

***Tender komissiyası***





*Təkrar*

## "Təmiz Şəhər" ASC tullantı daşıyan xüsusi texnikanın satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**Tullantı daşıyan xüsusi texnikanın satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464-41-11)

**İştirak haqqı 400 manat.**
**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 aprel 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 aprel 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **24 aprel 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## "Azərenerji" ASC və "Azərişıq" ASC əməkdaşları bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaqlar

Novruz bayramı günlərində istehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi təchizatı ilə əlaqədar "Azərenerji" və "Azərişıq" ASC tərəfindən qabaqlayıcı tədbirlər görülüb.

Bu məqsədlə enerji sisteminin dayanıqlığı və etibarlığını qorumaq, istehlakçıları fasiləsiz olaraq elektrik enerjisi ilə təmin etmək, baş verə biləcək qəzaların dərhal aradan qaldırılmasını həyata keçirmək üçün "Azərenerji" və "Azərişıq" ASC-lərin rəhbərliklərinin göstərişinə əsasən hər iki səhmdar cəmiyyətin mərkəzi aparatları üzrə məsul şəxslərdən ibarət növbətçilik təşkil edilib, eyni zamanda sistem əhəmiyyətli stansiya və yarımstansiyalara birbaşa məsul şəxslər təyin edilib. Yüksək, orta və alçaq gərginlikli bütün ötürücü və paylayıcı elektrik verilişi xətlərinin təkrar yoxlanılması və nəzarətdə saxlanılması təmin edilib.

***"Azərbaycan"***

## Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Hazırda Ermənistanda saxlanılan Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 29.10.1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu ilə bağlı məsələ hadisənin baş verdiyi 2019-cu il martın 16-dan etibarən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının diqqət mərkəzindədir.

AZƏRTAC Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının saytına istinadla xəbər verir ki, E.İbrahimovun azad edilməsi ilə bağlı Dövlət Komissiyası tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət ünvanlanıb, onun ruhi xəstə olduğu və əqli inkişafdan geri qaldığı diqqətə çatdırılıb.

Daxil olmuş məlumata əsasən, martın 19-da Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistan Respublikasındakı nümayəndəliyinin əməkdaşları saxlandığı xəstəxanada E.İbrahimova baş çəkiblər. E.İbrahimovun səhhətində hər hansı problemin olmadığı və qarşı tərəfə keçərkən ayağından aldığı yaranın müalicəsinin davam etdirildiyi bildirilir.

Dövlət Komissiyası hazırda tərəflərdə saxlanılan şəxslərin hamının-hamıya prinsipi ilə azad edilməsinin zəruri olduğunu bir daha vurğulayır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi MSK katibliyi Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəşid Yusifbəyliyə əzizi

**MÜSEYİB YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi iş yoldaşları Səbuhi Əfəndizadəyə atası

**ZAHİD ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri

**ƏLİ QARAXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Yusifbəyli və Partnyorları" Vəkil Bürosunun rəhbəri Rəsul Yusifbəyliyə qardaşı

**MÜSEYİB MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8566
Sifariş 982
Qiyməti 40 qəpik